RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 83 (9828) 26 aprel 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Milli maraqları qətiyyətlə təmin edən müstəqil siyasət

### Bunun nəticəsidir ki, Azərbaycan nüfuzlu və ehtiram göstərilən dövlətlər sırasındadır

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsində torpaqlarını işğaldan azad etməsi, 2023-cü ildə Qarabağda erməni separatizminə son qoyması da Azərbaycanın yürütdüyü müstəqil və qətiyyətli siyasətinin nəticəsidir. Bu siyasət yalnız işğala son qoymadı. Bu siyasət həm də Fransanın və Qərbin digər siyasi mərkəzlərinin bütün təhdid və təzyiqlərini qətiyyətlə dəf etdi, onların planlarını iflasa uğratdı. Torpaqlarımızın işğaldan azad edilməsi isə müasir müstəqillik tariximizin ən böyük, ən əlamətdar hadisəsi olmaqla yanaşı, Azərbaycanın regionda və dünyada nüfuzunu daha da yüksəltdi, mövqelərini möhkəmləndirdi.

Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan müstəqil və ləyaqətli siyasət yürüdür: "Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir".

Müstəqil siyasət həm də dövlətə rəhbərlik edən şəxsin siyasi nüfuzunu müəyyən edən meyarlardan biridir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyanın nüfuzlu dövlət başçıları ilə bir cərgədə dayanan liderdir. Dövlətimizin başçısının qlobal və regional məsələlərə dair mövqeyi, problemlərin həlli ilə bağlı yanaşmaları hər zaman diqqət mərkəzindədir. Bu da onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin edərək dünya çapında da böyük ehtiramla izlənilir. Əlamətdar hadisələrlə bağlı Prezident İlham Əliyevə ünvanlanan məktubların məzmunu da dövlətimizin başçısına olan yüksək ehtiramın göstəricisidir.

→ 5

## ATƏT-in Minsk qrupunun ləğv edilməsinin vaxtı artıq çoxdan çatıb

### Prezident İlham Əliyev ATƏT-in Baş katibini qəbul edib



→ 2

## Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Trans-Xəzər enerji dəhlizinin inkişaf etdirilməsində mühüm rol oynayır

### Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib



→ 2

## Papa Fransisk xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacaq

### Prezident İlham Əliyev Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı verib



→ 2

## Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir.

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Keçən yüzilliyin sonlarında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət-media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur.

Ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, milli ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası ilə birlikdə yubiley tədbirlərinin keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yubiley tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2025-ci il*

# ATƏT-in Minsk qrupunun ləğv edilməsinin vaxtı artıq çoxdan çatıb

## Prezident İlham Əliyev ATƏT-in Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Feridun Sinirlioğlunu ATƏT-in Baş katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi.

Feridun Sinirlioğlu təbrikə görə təşəkkürünü bildirdi. Qonaq Cənubi Qafqaz bölgəsinin ATƏT-in gündəliyində duran mühüm regionlardan biri olduğunu vurğuladı.

ATƏT-in Baş katibi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin razılaşdırılması ilə bağlı əldə olunmuş nəticələrə görə təbriklərini çatdıraraq, iki ölkənin münasibətlərinin normallaşdırılması istiqamətində müzakirələrin aparıldığını qeyd etdi.

Qonaq ATƏT-in Azərbaycanla həyata keçirdiyi əməkdaşlıq layihələrinə toxundu.

Dövlətimizin başçısı keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını deyərək, Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi yollarla tam təmin etdiyini, bununla da ölkəmiz tərəfindən Helsinki Yekun Aktının, beynəlxalq hüququn norma və prinsiplərinin Cənubi Qafqazda təsbit edilməsinin təmin olunduğunu dedi.

Görüşdə Azərbaycan ilə ATƏT arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Trans-Xəzər enerji dəhlizinin inkişaf etdirilməsində mühüm rol oynayır

## Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini dedi.

O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu dedi, "Cənub qaz dəhlizi"nin 4 ildir fəaliyyət göstərərək Avropanın qaz təchizatında oynadığı əhəmiyyətli rola toxundu.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan qaz təchizatının coğrafi əhatəsinə görə Avropa məkanını qazla təmin edən ilk ölkələrdən biridir.

"Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında uğurlu və səmərəli dialoqun mövcud olduğunu deyən dövlətimizin başçısı bərpaolunan enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkəmiz Xəzərin Azərbaycan sektorunda zəngin külək enerji resurslarına malikdir. Dövlətimizin başçısı vurğuladı ki, eyni zamanda Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Trans-Xəzər enerji dəhlizinin inkişaf etdirilməsində və Qara dəniz istiqamətində Gürcüstan, Rumıniya, Macarıstan, son dövrlərdə isə Bolqarıstanın da qoşulduğu layihələrin reallaşdırılmasında mühüm rol oynayır.

Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizlə Avropa İttifaqı arasında qazla yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar var.

Söhbət zamanı həmçinin Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində ikitərəfli əsasda addımların atıldığını və müzakirələrin aparıldığını qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Papa Fransisk xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacaq

## Prezident İlham Əliyev Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 25-də Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını və birinci xanımı Azərbaycanda katolik kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete qarşıladı.

Azərbaycan Prezidenti və birinci xanım matəm kitabına ürək sözlərini yazdılar.

Sonra dövlətimizin başçısı və birinci xanım Vladimir Fekete ilə söhbət etdilər.

Roma Papası Fransisklə görüşlərini və onun Bakıya səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı qeyd etdi ki, Papa Fransiskin Heydər məscidində ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşü insanlar arasında birliyin bərqərar olmasının vacibliyi ilə bağlı mesaj idi. Prezident İlham Əliyev Papa Fransiskin xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacağını dedi.

Birinci xanım Mehriban Əliyeva da öz növbəsində Papa Fransisklə görüşlərini məmnunluqla xatırladı.

Vladimir Fekete dövlətimizin başçısına və birinci xanıma başsağlığına görə minnətdarlığını bildirdi. O, Roma Papasının katolik kilsənin lideri kimi bir nümunə olduğunu dedi.









# Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 164-cü maddəsinin üçüncü-beşinci hissələri müvafiq olaraq dördüncü-altıncı hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxslər həmin geyim formasını yalnız rəsmi dəvət olunduqları Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan tədbirlərdə, ehtiyata və ya istefaya buraxıldıqları dövlət orqanının (qurumunun) əməkdaşlarının peşə bayramı günlərində, habelə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü"ndə, "Zəfər Günü"ndə və "Azərbaycan Respublikasında Anım Günü"ndə daşıya bilərlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

# Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək On Üçüncü sessiyasının (WUF13) milli koordinatorunun təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəflərindən biri kimi müəyyən olunmuşdur. Hazırda bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılır, şəhərsalma və urbanizasiya sahəsində müasir standartlar tətbiq edilməklə Bakıda və respublikanın digər şəhərlərində gerçəkləşdirilən layihələr ölkənin hərtərəfli inkişafında mühüm rol oynayır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tamamilə dağıdılmış yüzlərlə kənd, qəsəbə və şəhərin yenidən qurulması prosesi planlı şəkildə sürətlə davam etdirilir.

Azərbaycanın müasir şəhərsalma təcrübəsi 2022-2023-cü illərdə keçirilən milli şəhərsalma forumlarında geniş nümayiş etdirilmişdir. Regionda ilk dəfə təşkil edilən bu forumlar şəhərsalma ilə bağlı ən dolğun müzakirələrin aparıldığı bir platforma yaratmışdır.

Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınmışdır. Azərbaycana hörmət və etimadın göstəricisi olan bu mötəbər tədbirin yüksək səviyyədə təşkili ölkənin inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2026-cı ildə Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) yüksək səviyyədə təşkili və ölkəmizin şəhərsalma fəaliyyətinin beynəlxalq miqyasda təbliği məqsədilə **qərara alıram:**

1. Anar Adil oğlu Quliyev Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) milli koordinatoru təyin edilsin.

2. Milli koordinatora Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına (WUF13) hazırlıq işlərinin aparılması səlahiyyəti verilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2025-ci il*

# Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikasının səlahiyyətli qurumunun müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 427-VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında Saziş"in Əlavəsi - "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın Əsasnaməsi"nin 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikası tərəfindən səlahiyyətli qurum Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Azərbaycan Respublikasının səlahiyyətli qurumu müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2025-ci il*

# Revanşist və etnik nifrətə əsaslanan düşüncənin açıq təzahürləri beynəlxalq səviyyədə pislənməlidir

Aprelin 23-də Ermənistanın paytaxtı İrəvanda "məşəl yürüşü" zamanı, habelə aprelin 14-də Fransanın paytaxtı Paris şəhərində erməni icmasının toplantısı zamanı Azərbaycan bayrağının yandırılmasını qətiyyətlə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanıb.



Bəyanatda qeyd edilib: "Ermənistan və Fransa hökumətləri etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu kimi kampaniyaların qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi. Ermənistan və Fransa hökuməti bu hərəkətləri törətmiş şəxsləri məsuliyyətə cəlb etməlidir.

Ermənistanda və ondan kənarda hələ də güclü şəkildə revanşist və etnik nifrətə əsaslanan düşüncənin açıq təzahürü olan bu kimi aktlar beynəlxalq səviyyədə pislənməli və qarşısı alınmalıdır".

# "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 399 (Cild I) 6-cı maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) öz fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıda nəzərdə tutulmuş lisenziya və icazələrin alınması tələb olunmur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2025-ci il*

# "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 162-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 162-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin üçüncü hissəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsində birinci halda "orqan (qurum)" dedikdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.

2. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

3. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 162-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

5. "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 165 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 427 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin üçüncü hissəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 21-ci maddəsinin 2-ci hissəsində, 22-ci maddəsinin 3-cü hissəsinin ikinci cümləsində və 4-cü hissəsinin üçüncü cümləsində, 25-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.4. həmin Qanunun 6-cı maddəsinin üçüncü hissəsində birinci halda "orqan (qurum)" dedikdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən onun strukturuna daxil olan qurumlar nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2025-ci il*

*Azərbaycan Respublikası Prezidentinin*
*2025-ci il 25 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı**

| Sıra №-si | Fəaliyyət növünün adı |
|---|---|
| 1. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması |

*Azərbaycan Respublikası Prezidentinin*
*2025-ci il 25 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı**

| Sıra №-si | İcazənin adı |
|---|---|
| 1. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına, o cümlədən ölkə ərazisindən tranzit keçirilməsinə icazə |

# Azərbaycanla Aİ arasında əməkdaşlıq gündəliyinin inkişaf perspektivləri müzakirə edilib

**Aprelin 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**








Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər arasında keçirilmiş təkbətək və geniş tərkibdə görüşlər zamanı Azərbaycan və Aİ arasında əməkdaşlıq gündəliyinin mövcud vəziyyəti, inkişaf perspektivləri, enerji təhlükəsizliyi, nəqliyyat, kommunikasiyalar, iqlim dəyişmələri ilə mübarizə daxil olmaqla müxtəlif sahələrdə əməkdaşlıq imkanları, habelə regional təhlükəsizlik məsələləri və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunub.

Bununla yanaşı, görüş zamanı tərəflər Azərbaycan ilə Aİ arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək tədbirlərin, o cümlədən yüksəksəviyyəli səfərlərin və qarşılıqlı faydalı təşəbbüslər barədə fikir mübadiləsi aparıb, həmçinin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzrə danışıqların mövcud reallıqlar nəzərə alınmaqla, davam etdirilməsinin önəmini vurğulayıb.

Ceyhun Bayramov Azərbaycanın hər zaman Aİ ölkələri ilə bir-birinin legitim maraqlarının, prioritet məsələlərinin və mövcud reallıqların nəzərə alındığı və hörmət bəslənildiyi bərabərhüquqlu münasibətlərin qurulmasının tərəfdarı olduğunu bildirib.

Nazir Ceyhun Bayramov həmkarına postmünaqişə dövründə bölgədəki vəziyyət, azad edilmiş ərazilərdə aparılan bərpa işləri, mina təhdidi ilə mübarizə və keçmiş məcburi köçkünlərin qayıdışı barədə məlumat verib. Azərbaycan-Ermənistan sülh sazişi üzrə danışıqların hazırkı mərhələsi və bu prosesə mane olan amillər, xüsusilə də Ermənistan Respublikasının konstitusiyasında Azərbaycan Respublikasına qarşı ərazi iddialarının mövcudluğu və artıq öz əhəmiyyətini itirmiş olan Minsk qrupu kimi təsisatların ləğv edilməsi məsələləri diqqətə çatdırılıb.

Söhbət zamanı həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu vurğulanaraq, ölkəmizin COP29 sədrliyi çərçivəsində xüsusilə maliyyə hədəflərinin artırılması daxil olmaqla, iqlim dəyişmələri ilə mübarizə sahəsində dönüş yarada biləcək tarixi razılıqların, eləcə də "yaşıl enerji" sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə tərəflər həmçinin gündəlikdə duran və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Sonda mətbuat konfransı keçirilib, tərəflər bəyanatla çıxış ediblər.

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının iclası keçirilib



Aprelin 25-də Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Holdinqin idarəetməsinə verilmiş Portfel Şirkətlərin 2024-cü ilin yekunları üzrə Fəaliyyət Hesabatı, əsas maliyyə nəticələri, o cümlədən ümumi gəlir və EBİTDA göstəriciləri, AİH-in idarəetməsinə verilmiş yeni portfel şirkətlər ("Azəralüminium" MMC, "Azərbaycan Alüminiumu" ASC və "Azərpambıq ASK" MMC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən portfel şirkətlərində korporativ idarəetmənin qiymətləndirilməsi layihəsinin yekun hesabatı və əsas praktik tövsiyələri, Birgə İnvestisiya Fondları çərçivəsində görülmüş işlər və digər məsələlər ətraflı müzakirə olunub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun geniş hesabatı dinlənilib. İclasın yekununda AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 126** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 mart tarixli 353 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.
2. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin strukturu" təsdiq edilsin *(əlavə olunur)*.
3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.
4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları"nın təsdiq edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 127** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının 3.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41 (Cild I) ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"na 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarında çalışan diplomatik xidmət əməkdaşlarının yaşayış yeri ilə təminatı normaları"nın "Diplomatik xidmət əməkdaşları" sütununda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü sətirdən ", hərbi attaşe (nümayəndə)" sözləri çıxarılsın;

2.2. 5-ci sətirdən "hərbi attaşenin (nümayəndənin) baş köməkçisi," sözləri çıxarılsın;

2.3. 6-cı sətirdən "hərbi attaşenin (nümayəndənin) köməkçisi," sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin 5.2-5.4-cü və 5.10-cu bəndləri ləğv edilsin.
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 24 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 193 (Cild I) 2-ci hissəsi ləğv edilsin.
5. "Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə təminatların verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 oktyabr tarixli 430 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1893 (Cild I) ləğv edilsin.
6. Bu Qərar 2025-ci il aprelin 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 130** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Milli Məclisin Sədri Sahibə Qafarova Vatikana səfərə gedib



**Aprelin 25-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti Roma Papası Fransiskin dəfn mərasimində iştirak etmək üçün Vatikana səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Roma şəhərinin Beynəlxalq Hava Limanında Milli Məclisin nümayəndə heyətini Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov, ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanov və Vatikan rəsmiləri qarşılayıblar.

Milli Məclisin Sədri aprelin 26-da Santa Maria Maggiore bazilikasında keçiriləcək dəfn mərasimində ölkəmizi təmsil edəcək, Roma Papasının son mənzilə yola salınması tədbirlərinə qatılacaq.

***"Azərbaycan"***

# Azərbaycan Mühəndislik Akademiyasının illik ümumi hesabat yığıncağı keçirilib

**Aprelin 25-də Azərbaycan Mühəndislik Akademiyasının 2024-cü il üçün onlayn rejimdə illik ümumi hesabat yığıncağı keçirilib.**




Bu barədə AZƏRTAC-a Azərbaycan Mühəndislik Akademiyasından məlumat verilib.

Yığıncaqda akademiyanın prezidenti akademik Arif Paşayev qeyd edib ki, hazırda Mühəndislik Akademiyasının üzvlərinin sayı 39 nəfərdir, bunlardan 21 nəfəri həqiqi üzv, 18 nəfəri müxbir üzv, 1 nəfəri fəxri üzv və 4 nəfəri isə əcnəbi üzvdür.

Sonra akademiyanın vitse-prezident akademik Əhəd Canəhmədov hesabat dövründə görülmüş işlər barədə ətraflı məlumat verib. O bildirib ki, hesabat ilində bir sıra sənaye müəssisələri və kənd təsərrüfatı sahələrində əhəmiyyətli nəticələr əldə olunan mühəndis işləri görülüb və tətbiqini tapıb.

Akademiya üzvü olduğu UNESCO-nun nəzdindəki Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası (WFEO) ilə əlaqələrini davam etdirir və bir çox tədbirlərində distant rejimdə iştirak edir.

Akademiyanın üzvləri tərəfindən yazılmış çoxlu sayda kitablar, dərsliklər, monoqrafiyalar, dərs vəsaitləri, dərc olunmuş məqalələr xaricdə və ölkə daxilində nəşr olunub.

Hesabat ilində keçirilən konfranslar, seminarlar, "dəyirmi masa"lar və eləcə də akademiyanın iştirak etdiyi beynəlxalq simpoziumlar ölkəmizin beynəlxalq aləmdə tanınması üçün mühüm rol oynayır.

Ədliyyə Nazirliyi tərəfindən akademiya növbəti 5 il müddətinə Nizamnaməyə əlavə və dəyişikliklər nəzərə alınmaqla yenidən qeydiyyata alınıb.

Ümumi yığıncağın yekununda akademiyanın üzvləri Kamal Əskərov, Bəhrəm Əliyev, Maksim Cavadov, Elçin İsgəndərzadə və digərləri çıxış ediblər və yekun qərar qəbul edilib.

Hesabat akademiyanın veb-saytında yerləşdiriləcək.

# Səhiyyə qanunvericiliyi təkmilləşdirilir



**Aprelin 25-də Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əhliman Əmiraslanov iclasda bir məsələnin - Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) müzakirəyə çıxarıldığını bildirib.

Qanun layihəsi barədə danışan Əhliman Əmiraslanov sənəddə təklif olunan dəyişiklikləri zəruri edən amillərdən söz açıb, onların əhəmiyyətini diqqətə çatdırıb. Bildirilib ki, dəyişikliklər səhiyyəmizin mühüm sahəsi olan praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) peşəkarlıq səviyyəsinin yüksəldilməsi və peşə yararlılığının yoxlanılması işinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Tibb mütəxəssislərinin peşəkarlığının qiymətləndirilməsinin bəzi aktual məsələlərinə toxunan komitə sədri bu sahədə xidmətlərin keyfiyyətinin və əlçatanlığının artırılması ilə bağlı fikirlərini bölüşüb.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, beynəlxalq tibb elminin yenilənən inkişafı nəzərə alınmaqla səhiyyə qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edən layihədə 4 hüquqi akta ümumilikdə 34 dəyişiklik təklif olunur. Qeyd olunub ki, Əmək Məcəlləsinə, "Özəl tibb fəaliyyəti haqqında", "Dərman vasitələri haqqında" qanunlara ediləcək dəyişikliklər "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərdən qaynaqlanır. Milli Məclisin şöbə müdiri bildirib ki, qanun layihəsi Səhiyyə Nazirliyinin təşəbbüsü ilə hazırlanıb.

O, layihə hazırlanarkən öyrənilən dünya təcrübəsindən söz açıb, qanunvericiliyimizdə ilk dəfə təsbit edilən "Davamlı peşəkar inkişaf (DPİ)" anlayışını, DPİ üzrə minimum kredit ballarının toplanılması mexanizmini şərh edib. O, tibb işçilərinin sertifikasiyası prosesi və qaydalarına təklif olunan yenilikləri və əsas müddəaları təqdim edərkən diqqətə çatdırıb ki, layihəyə əsasən, tibb işçilərinə öz sertifikat şəhadətnamələrini ya 5 ildən bir imtahan yolu ilə, ya da 5 il ərzində 250 kredit balı yığmaqla əldə etməyə şərait yaradılır. Yəni onların peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi və peşə yararlılığının yoxlanılması məqsədilə alternativ DPİ mexanizmi tətbiq olunacaq. Bu məqsədlə də qanunun 46-cı maddəsinin 3-cü hissəsi yeni redaksiyada verilir.

Bundan başqa, layihədə sertifikasiya prosesinin təkmilləşdirilməsi üçün təklif olunan bir sıra prosedur və terminoloji dəqiqləşdirmələr barədə ətraflı məlumat verən Adil Vəliyev vurğulayıb ki, bu layihənin qəbul edilməsi hər zaman insanların sağlamlığının keşiyində duran həkimlərin və tibb işçilərinin davamlı təhsil yolu ilə inkişaf etmələrinə böyük töhfə olacaq.

Qanun layihəsinin müzakirəsində deputatlar Məlahət İbrahimqızı, Soltan Məmmədov, Pərvanə Vəliyeva, İlham Məmmədov, Kamaləddin Qafarov, Müşfiq Məmmədli çıxış ediblər. Çıxışçılar təklif olunan dəyişikliklərin ölkəmizdə tibb mütəxəssislərinin bilik və bacarıqlarının artırılmasını təmin edəcəyinə, nəticədə əhaliyə keyfiyyətli tibbi xidmətlərin göstərilməsinə mühüm töhfələr verəcəyinə inamlarını ifadə ediblər. Deputatlar sənəddə əks olunan məsələlərlə bağlı fikirlərini bildiriblər, bəzi qeydlərini səsləndiriblər.

Komitə sədri Əhliman Əmiraslanov, Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi müdirinin müavini Təranə Əhmədova qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasa yekun vuran komitə sədri Əhliman Əmiraslanov layihədə nəzərdə tutulan və mütərəqqi müddəalarla zəngin olan tənzimlənmələrin tibb mütəxəssislərinin peşəkar inkişafını stimullaşdırdığını, onların peşəkarlığının yüksəldilməsinə və beynəlxalq peşəkar mühitə inteqrasiyasına hüquqi zəmin yaratdığını vurğulayıb.

Sonda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Milli maraqları qətiyyətlə təmin edən müstəqil siyasət

### Bunun nəticəsidir ki, Azərbaycan nüfuzlu və ehtiram göstərilən dövlətlər sırasındadır

**Dövlətin beynəlxalq münasibətlər sistemindəki yerini, rolunu və nüfuzunu şərtləndirən əsas amillərdən biri onun həyata keçirdiyi siyasi kursun məzmunudur. Bu kurs müstəqil olanda, dövlətin milli mənafelərini təmin edəndə, xarici direktivlər əsasında formalaşmayanda qlobal səviyyədə də ehtiramla qarşılanır. Başqalarının kölgəsində və yedəyində sürünənlərin isə heç bir yerdə hörməti olmur.**

#### İlham ƏLİYEV: "Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik"

Olduqca qürurvericidir ki, Azərbaycan dünyada özünün yolu, qətiyyətli və müstəqil siyasəti, istənilən regional və qlobal məsələ ilə bağlı öz mövqeyi olan dövlət kimi tanınır. Bu barədə çoxsaylı misallar çəkmək olar. Hələ illər öncə Azərbaycanın Xəzərdən hasil etdiyi nefti alternativ marşrutla dünya bazarlarına çıxarması müstəqil enerji siyasətinin təcəssümü idi. Bu siyasətin başqa bir göstəricisi 2020-ci ilin sonundan başlayaraq Azərbaycanın təbii qazının birbaşa Avropa bazarlarına çatdırılmasıdır. Eləcə də Azərbaycanın nəqliyyat dəhlizləri ilə bağlı rəqabətdə qazandığı uğurlar da ölkəmizin qətiyyətli siyasətinin təzahürüdür.

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsində torpaqlarını işğaldan azad etməsi, 2023-cü ildə Qarabağda erməni separatizminə son qoyması da Azərbaycanın yürütdüyü müstəqil və qətiyyətli siyasətinin nəticəsidir. Bu siyasət yalnız işğala son qoymadı. Bu siyasət həm də Fransanın və Qərbin digər siyasi mərkəzlərinin bütün təhdid və təzyiqlərini qətiyyətlə dəf etdi, onların planlarını iflasa uğratdı. Torpaqlarımızın işğaldan azad edilməsi isə müasir müstəqillik tariximizin ən böyük, ən əlamətdar hadisəsi olmaqla yanaşı, Azərbaycanın regionda və dünyada nüfuzunu daha da yüksəltdi, mövqelərini möhkəmləndirdi.

Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan müstəqil və ləyaqətli siyasət yürüdür: "Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir".

Müstəqil siyasət həm də dövlətə rəhbərlik edən şəxsin siyasi nüfuzunu müəyyən edən meyarlardan biridir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyanın nüfuzlu dövlət başçıları ilə bir cərgədə dayanan liderdir. Dövlətimizin başçısının qlobal və regional məsələlərə dair mövqeyi, problemlərin həlli ilə bağlı yanaşmaları hər zaman diqqət mərkəzindədir. Bu da onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin edərək dünya çapında da böyük ehtiramla izlənilir. Əlamətdar hadisələrlə bağlı Prezident İlham Əliyevə ünvanlanan məktubların məzmunu da dövlətimizin başçısına olan yüksək ehtiramın göstəricisidir.

#### Mükəmməl xarici siyasət kursunun təntənəsi

Xarici siyasətdə də müstəqilliyin təmin olunması ölkənin beynəlxalq münasibətlərdəki yerinin və rolunun qiymətləndirilməsində əsas meyarlardan biridir. Böyük məmnunluqla qeyd etməliyik ki, Azərbaycanın xarici siyasət kursu respublikamızın milli prioritetlərini layiqincə təmin edir. Azərbaycan dünyanın hər bir siyasi qütbü ilə yüksək əlaqələrə malikdir. Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair sənədlər imzalanıb.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi dövlət səfəri də respublikamızın yürütdüyü mükəmməl xarici siyasət kursunun və beynəlxalq münasibətlər sistemindəki güclü mövqelərinin nümayişi oldu. Prezident İlham Əliyev bundan əvvəl də Çinə dövlət, rəsmi və işgüzar səfərlər etmişdir. Öncə onu qeyd edək ki, dövlət səfəri ölkə rəhbərlərinin səfərləri sırasında birinci yerdə dayanır. Belə ki, dövlət səfəri məzmununa görə ölkələr arasındakı əlaqələrin ən yüksək həddini ifadə edir. Bu mənada Çin Xalq Respublikası Sədri Si Cinpinin dəvəti ilə reallaşan bu ali səfər Prezident İlham Əliyevə və Azərbaycana olan yüksək ehtiramdan xəbər verir.

Qeyd edək ki, Azərbaycan-Çin münasibətləri dostluğa, qarşılıqlı etimada və çoxşaxəli tərəfdaşlığa əsaslanmaqla, yüksək inkişaf dinamikası ilə seçilir. Hər iki dövlət həmişə bir-birinin milli maraqlarına qarşılıqlı dəstək nümayiş etdiriblər. Belə ki, Azərbaycan Çinin "Vahid Çin" siyasətini hər zaman dəstəkləyib. Çin isə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığına daim dəstək nümayiş etdirib. Çin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü isə ikitərəfli münasibətlərin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaradıb və Azərbaycan bu məsələdə Çinin əsas tərəfdaşlarından biridir.

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri iki dövlət arasındakı siyasi-iqtisadi gündəliyi daha da zənginləşdirdi. Çin Xalq Respublikasının Sədri Si Cinpinin Prezident İlham Əliyevlə görüşdə səsləndirdiyi fikirlər bir daha iki dövlət və onların rəhbərləri arasındakı dostluğu nümayiş etdirdi.

Bu səfər zamanı imzalanan sənədlər iki dövlət arasındakı əlaqələrin hüquqi bazasını daha da gücləndirdi. "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə Azərbaycanla dünyanın supergüclərindən biri olan Çinin strateji tərəfdaşlığını yeni mərhələyə yüksəltdi.

Bütövlükdə bu səfər Azərbaycanın mükəmməl xarici siyasət kursunun Prezident İlham Əliyevin və müdrik diplomatiyasının təntənəsinə çevrildi. Bir daha təsdiq olundu ki, Azərbaycan beynəlxalq münasibətlərdə ən yüksək ehtiram göstərilən dövlətlərdəndir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Milli təəssübkeşlik, Vətən və xalq sevgisi

### Leyla xanım Əliyevanın hər xarici səfərində bu hissləri görməmək mümkün deyil



**Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət!" kampaniyasının təşəbbüskarı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq İctimai Birliyinin (IDEA) təsisçisi və sədri Leyla Əliyeva bu gün ictimai fəaliyyəti ilə Azərbaycan dövlətinə və dövlətçiliyinə nümunəvi xidmət göstərir.**

Xüsusən xarici ölkələrə səfərləri zamanı dövlət və hökumət nümayəndələri, digər rəsmi və qeyri-rəsmi şəxslərlə görüşü Leyla xanımın Vətən və xalq sevgisindən, ölkəmizin imicinə ürək yanğısından xəbər verir. Hər səfərində Azərbaycanı yüksək səviyyədə təmsil edən Leyla xanım ölkəmizin sülhsevər, demokratik, humanizm prinsiplərinə sadiq olduğunu dünyaya çatdırmağı özünə borc bilir. Bu baxımdan gənc liderin Vyetnama və Çinə səfərləri də yaddaqalan anlar və maraqlı detallarla zəngin olub.

Hanoy Ticarət və Turizm Kollecində Leyla Əliyeva yaradıcı sənaye nümayəndələri və təhsil müəssisələrinin liderləri, eləcə də sovet dövründə Azərbaycanda təhsil almış vyetnamlı məzunlar ilə görüşüb. Məlumat üçün bildirək ki, 1965-ci ildən fəaliyyət göstərən Hanoy Ticarət və Turizm Kolleci bu sahədə Vyetnamın ən böyük və nüfuzlu təhsil müəssisələrindən biridir. Təxminən 3000 tələbəsi olan kollecin müxtəlif akademik və peşə təhsilinin səviyyələri üzrə 50-dən çox təlim proqramı var.

Söhbət zamanı Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfərinin ölkələr arasında münasibətlərdə yeni səhifə açdığı vurğulanıb, mövcud əlaqələrin genişlənməsinə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin böyük töhfə verdiyi qeyd olunub, fondun təhsil və sosialyönümlü layihələrinin Vyetnamı da əhatə etdiyi diqqətə çatdırılıb. Bu istiqamətdə Vyetnamın Ha Giang əyalətində Heydər Əliyev Fondunun dəstəyi ilə ibtidai məktəbin inşa edildiyi xatırladılıb. Bundan başqa, ikitərəfli münasibətlərə, eləcə də hazırda Azərbaycan-Vyetnam əlaqələrinə dair fikir mübadiləsi aparılıb. Mövcud münasibətlərin daha da genişləndirilməsi, bu çərçivədə Heydər Əliyev Fondu tərəfindən təhsil və sosial sahələrdə həyata keçiriləcək layihələr müzakirə edilib.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan və Vyetnam xalqları arasında dostluq münasibətlərinin bugünkü səviyyəyə çatmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ulu Öndərin 1983-cü ildə Vyetnama səfərindən sonra Azərbaycanda təhsil alan vyetnamlı tələbələrin sayı artmışdır. Xatırladaq ki, hələ SSRİ zamanı 5 minədək vyetnamlı gənc Bakıda təhsil almışdır. Bu gün iki ölkə arasında dostluq münasibətlərinin formalaşmasında Azərbaycanda təhsil almış həmin məzunların xüsusi rol oynadıqları görüşdə xüsusi vurğulanmışdır.

Leyla Əliyeva Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində bu ölkənin vitse-prezidenti Vo Ti An Suan ilə də görüşüb. Səfərin ikinci günü baş tutan görüş zamanı dövlətlərarası diplomatik münasibətlərlə yanaşı, xalqlarımız arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Həmçinin Azərbaycanın və Vyetnamın turizm potensialının inkişafı baxımından əməkdaşlıq və ayrı-ayrı sahələri əhatə edən mübadilə proqramlarının icrası, iki ölkə mədəniyyətinin daha yaxından tanıdılması üçün tədbirlərin təşkili məsələləri müzakirə edilib.

Prezident İlham Əliyevin bu günlər Çinə dövlət səfəri zamanı Leyla Əliyevanın da bu ölkədə olması və Xarici Dillər Universitetini ziyarət etməsi dövlətlərarası münasibətlərin geniş məzmun daşımasına dəlalət edir. IDEA rəhbərinin universitetin prorektoru Gao Qanq və burada Azərbaycan dili üzrə təhsil alan çinli tələbələr ilə görüşündə həmin münasibətlərin genişlənməsində gənclərin xidmətindən danışılıb. Qeyd olunub ki, iki ölkənin təhsil sistemində bu istiqamətdə həyata keçirilən layihələrin rolu çox böyükdür. Görüşdə Azərbaycan mədəniyyətini öyrənib tədqiq və təbliğ etməyə maraqlı olan Pekin Xarici Dillər Universitetindəki Azərbaycan dili kafedrasının fəaliyyətinin, universitetdə Azərbaycan dili üzrə kadrların hazırlanmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Onu da bildirək ki, universitetin tədris proqramına Azərbaycan dili ilə yanaşı, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı fənləri də daxildir. Bu yerdə Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında 10 ilə yaxın davam edən əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirilməsini xatırlatmaq yerinə düşər. Leyla xanımın təşəbbüsü və dəstəyi ilə 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində (UNEC) distant çin dili kursları təşkil olunub. Məhz bu amil nəticəsində Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında bu il ərzində anlaşma memorandumunun imzalanması barədə qərar qəbul olunub.

Azərbaycan dili kafedfrası ilə tanış olan Leyla Əliyevaya kafedranın fəaliyyətinin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirlər haqqında məlumat verilib. Leyla xanım isə Heydər Əliyev Fondunun müxtəlif sahələri əhatə edən, o cümlədən Azərbaycan mədəniyyətinin tanıdılmasını əks etdirən ədəbiyyatın çin dilində çap olunmasının vacibliyini diqqətə çatdırıb.

Çinin ölkə səviyyəli tədqiqat müəssisələrindən olan Milli İnsan Genomu Mərkəzi Elm və Texnologiya Nazirliyinin rəyi ilə yaradılmışdır. Mərkəz elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasını və Çində genomik sənayenin yaradılmasını təşviq edir. Burada ən qabaqcıl texnoloji avadanlıqlardan istifadə edilməklə fundamental və klinik tədqiqatlar, populyasiya genetikası və bioinformatika sahələrində layihələr həyata keçirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti bu müəssisəni də ziyarət edərək mərkəzin laboratoriyalarına və bioloji nümunələr bankına baxıb, əməkdaşlarla söhbət edib. Söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə potensial əməkdaşlıq imkanları, o cümlədən onkoloji xəstəliklər, serebral iflic və digər xəstəliklərin müalicəsi zamanı Genom Mərkəzinin metodlarının tətbiqi məsələsi müzakirə olunub.

"İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik" deyən Leyla Əliyevanın son bir həftədə Vyetnama və Çinə səfərləri milli təəssübkeşlikdən, tükənməz enerji və sevgidən qaynaqlanır. Bundan öncəki çoxsaylı səfərlərə də nəzər yetirsək görərik ki, Leyla xanımın fəaliyyətinin miqyası, əhatə dairəsi kifayət qədər genişdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## İkitərəfli əlaqələr yeni müstəviyə keçir

### Avropa İttifaqı Azərbaycanın regional və geosiyasi əhəmiyyətini qəbul edir

**"Azərbaycan regionda əhəmiyyətli tərəfdaşdır və əlaqələrimizin gücləndirilməsi baxımından müəyyən gözləntilərimiz var. Əlaqələrimiz ikitərəfli yol kimi inkişaf edir. Avropa İttifaqı Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Münaqişənin izlərinin aradan qaldırılması və həyatların xilas edilməsi üçün görülən işləri yüksək qiymətləndiririk".**

Bu fikirləri Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas xarici işlər naziri Ceyhun Bayramovla dünən keçirdiyi birgə mətbuat konfransında söylədi.

Avropa İttifaqının Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu deyən diplomat bəyan etdi ki, Aİ Azərbaycanla ticarət əlaqələrini yeni razılaşma əsasında daha da genişləndirməyi planlaşdırır.

Prezident İlham Əliyevlə keçirilən görüşdə də Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi.

9 illik fasilədən sonra Avropa İttifaqının ali nümayəndəsinin Azərbaycana səfərinə və Kaya Kallasın səsləndirdiyi fikirlərə əsaslanaraq deyə bilərik ki, Aİ Azərbaycanın regional və geosiyasi əhəmiyyətini qəbul edir, Azərbaycanın Xəzər dənizi - Qara dəniz regionunda oynadığu rolu, Avropanın enerji təhlükısizliyinin təmin edilməsində yerini yüksək qiymətləndirir. Çünki bu gün Azərbaycan Avropanın 10 ölkəsinə qaz verir və Avropada təchizatın coğrafiyasına görə birinci yerdədir.

Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsinin səsləndirdiyi fikirlərdən o da bəlli olur ki, Aİ Azərbaycanın əhəmiyyətini artıq görür və əvvəl mövcud olmuş stereotiplər və yanaşmalardan geri çəkilir. Səfərin nəticələri onu deməyə əsas verir ki, ikitərəfli əlaqələr yeni müstəviyə yüksəlir.

Kaya Kallas Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüşdə, həmçinin Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında aparılan sülh danışıqları, eləcə də minatəmizləmə prosesində iştirakı barədə fikirlərini bölüşüb.

Qeyd edilib ki, Avropa İttifaqı Azərbaycanda minaların təmizlənməsi prosesinə töhfə verməkdədir və ölkədə münaqişənin izlərinin aradan qaldırılması istiqamətində səylərini davam etdirəcək.

Sülh danışıqlarına gəlincə isə, Kaya Kallas əlavə edib ki, iki ölkə arasında münasibətlərin gücləndirilməsi, sülh sazişinin dayanıqlı və davamlı olması istiqamətində göstərilən səylərə Avropa İttifaqı olaraq dəstəyini ifadə edir: "Sülh sazişinin mətn hissəsinin razılaşdırılmasını məmnuniyyətlə qarşılayıram və ümid edirəm ki, növbəti addımlar daha məhsuldar olacaq" deyən Kaya Kallasın səfəri və Prezidentlə görüşü Azərbaycan-Aİ əlaqələrində dönüş nöqtəsi kimi qiymətləndirilə bilər.

Bir sözlə, Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsinin bu səfəri ikitərəfli münasibətlərdə yeni səhifə açdı və onu yeni səviyyəyə qaldırdı, desək yanılmarıq.

Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan hər zaman beynəlxalq təşkilatlarla qarşılıqlı, ikitərəfli münasibətlərin inkişafında maraqlı olub və bu istiqamətdə müsbət addımlar atıb. Lakin Azərbaycanın Cənubi Qafqazdakı liderliyi, əldə etdiyi uğurlar bəzi Qərb dairələrində, beynəlxalq təşkilatlarda qıcıq hissi yaradıb. Xüsusən də, İkinci Qarabağ müharibəsindəki Şanlı Zəfərimizdən sonra Azərbaycana qarşı edilən basqılar, təzyiqlər bunun bariz təcəssümüdür.

Avropa İttifaqının son addımı bir daha sübut edir ki, artıq Qərb təsisatları da Azərbaycanın reallıqları ilə, regionda yaratdığı vəziyyətlə barışırlar və Prezident İlham Əliyevin sülh gündəliyini təqdir edirlər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin may ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 2, 8, 23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 2, 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 21 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 23 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 27 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 30 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib





**Aprelin 25-də Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının qorunması, cinayət işlərinin istintaqı və təhqiqat zamanı qanunçuluğa riayət edilməsi, polis-media əlaqələrinin təşkili sahəsində görülən işlərin vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2025-ci ilin I rübündə də məqsədyönlü şəkildə davam etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 7.829 cinayətin 87 faizi açılıb. Cinayətlərin dinamikasında 2024-cü ilin eyni dövrü ilə müqayisədə 12,3 faiz və ya 1.101 fakt azalma qeydə alınıb.

Ağır və xüsusilə ağır cinayətlər, şəxsiyyət əleyhinə olanlar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, ictimai yerlərdə, qrup halında və ailə münaqişəsi zəminində baş verənlər, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən və odlu silahın tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı azalıb.

Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, şəxsiyyət əleyhinə olanların, xuliqanlıqların, oğurluqların, dələduzluqların, soyğunçuluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb. Qeyri-leqal dövriyyədən 1 ton 662 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 333 kiloqram çox narkotik vasitə çıxarılıb. Əllərdə qanunsuz saxlanılan 2.309 odlu silah aşkarlanıb.

Vətəndaş məmnunluğunun təmin edilməsi, o cümlədən müraciətlərə baxılması üzrə fəaliyyətin nəticələrinin müsbət olduğunu, cinayət yolu ilə şəxslərə vurulmuş maddi ziyanın 96 faizinin istintaq prosesində ödənildiyini nəzərə çatdırıb.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə icra olunduğunu, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsini tələb edib.

Bütün ərazi polis orqanlarının rəislərindən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasının zəruriliyini və müvafiq sahədə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Törədilmiş əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşmasında polis orqanlarının istintaq və təhqiqat qurumlarının mühüm rolunu, bu istiqamətdə işin düzgün təşkilinin cinayətlərin açılmasında və araşdırılmasında, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasında, vurulmuş maddi ziyanın ödətdirilməsində əhəmiyyətini də qeyd edib. Hər bir müstəntiqin və təhqiqatçının əsas vəzifəsinin insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu vurğulayıb və aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Ərizə və şikayətlərə baxılması, eləcə də qanunçuluğun qorunması vəzifələrinin icrası kimi vacib məsələlərə toxunaraq bu istiqamətlərdə görülən işlərin xüsusi nəzarətdə saxlanıldığını, müraciətlərin obyektiv və həssaslıqla araşdırıldığını, qaynar xətlərə daxil olmuş və sosial şəbəkələrdə yayımlanmış məlumatlara çevik reaksiya verildiyini, bütövlükdə əldə edilmiş nəticələrin müsbət olduğunu bildirib.

Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqinin, o cümlədən əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, "Elektron Xidmətlər Portalı" üzərindən göstərilən daha 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını diqqətə çatdırıb. Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə mane olan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını, insanların həyat və sağlamlığının yol-nəqliyyat qəzalarından qorunması işinin effektivliyinin artırılmasını tələb edib, habelə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində qarşıda duran vəzifələri müəyyən edib.

Yekunda polis-media əlaqələrinin vəziyyətinə toxunaraq Daxili İşlər Nazirliyinin mediaya ən açıq qurumlardan biri olduğunu qeyd edərək Mətbuat xidmətinin fəaliyyətinin daha səmərəli təşkili, informasiya məkanında rolunun artırılması, görülən işlər və həyata keçirilən tədbirlər barədə məlumatların ictimaiyyətə operativ çatdırılması üçün tapşırıq və tövsiyələrini verib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Mingəçevir | Mingəçevir, Yevlax | 01 |
| 2. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Naftalan | Naftalan, Goranboy, Xocalı | 01 |
| 3. | **Ədliyyə naziri** Fərid Əhmədov | İmişli | İmişli, Beyləqan, Biləsuvar, Saatlı, Sabirabad, Zərdab | 02 |
| 4. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Ağdam (Quzanlı qəsəbəsi) | Ağdam, Tərtər, Bərdə, Ağcabədi, Naftalan, Goranboy, Xocalı | 08 |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Göygöl | Göygöl, Daşkəsən | 08 |
| 6. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Oğuz | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | 15 |
| 7. | **Energetika naziri** Pərviz Şahbazov | Ağstafa | Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy | 16 |
| 8. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Xaçmaz | Xaçmaz, Qusar | 16 |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Daşkəsən | Daşkəsən, Gədəbəy | 16 |
| 10. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Yardımlı | Yardımlı, Masallı, Cəlilabad, Lənkəran, Astara, Lerik | 16 |
| 11. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Ucar | Ucar, Zərdab, Kürdəmir, Ağdaş, Göyçay | 16 |
| 12. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | İsmayıllı | İsmayıllı, Ağsu | 16 |
| 13. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Tərtər | Tərtər, Bərdə, Ağcabədi, Ağdam, Füzuli, Laçın, Xocalı | 16 |
| 14. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Şamaxı | Şamaxı, Qobustan | 16 |
| 15. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Lerik | Lerik, Lənkəran, Astara | 16 |
| 16. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Qəbələ | Qəbələ, Oğuz | 16 |
| 17. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Qazax | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | 19 |
| 18. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Xaçmaz | Xaçmaz, Şabran, Siyəzən | 23 |
| 19. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Astara | Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı | 30 |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | İsmayıllı | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | 30 |
| 21. | **Mədəniyyət naziri** Adil Kərimli | Siyəzən | Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar | 30 |
| 22. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Ağdam (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | 30 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Azərbaycanla Avropa Voleybol Konfederasiyası arasında əməkdaşlıq müzakirə olunub

**Gənclər və idman naziri Fərid Qayıbov Avropa Voleybol Konfederasiyasının (CEV) prezidenti Roko Sikiriçlə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyində baş tutan görüşdə Azərbaycan ilə CEV arasında əməkdaşlıq əlaqələri, voleybolun inkişaf perspektivləri və birgə layihələr müzakirə olunub. Tərəflər gələcək əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

# Nəsimi Rayon Prokurorluğunun yeni inzibati binası istifadəyə verilib

**Aprelin 25-də Nəsimi Rayon Prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib.**






Tədbirdə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini ehtiramla yad ediblər.

Məlumat verilib ki, istifadəyə verilən yeni inzibati bina prokurorluq əməkdaşlarının peşəkar fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin effektivliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir standartlara tam cavab verən infrastrukturla təmin olunub.

Binada əməkdaşların rahat və funksional iş şəraiti üçün bütün zəruri texniki avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar, vətəndaşların qəbulu üçün xüsusi hissə, konfrans və iclas zalları yaradılıb. Eyni zamanda bina enerji səmərəliliyi və təhlükəsizlik baxımından da ən son tələblərə uyğun layihələndirilib. Əlavə olaraq qeyd olunub ki, yeni binada "Elektron Prokurorluq" informasiya sistemi də tam şəkildə tətbiq olunub. Bu sistem vasitəsilə sənəd dövriyyəsi rəqəmsal müstəvidə həyata keçirilir, işin çevikliyi və şəffaflığı artırılır.

İnzibati bina ilə tanışlıqdan sonra yeni binanın akt zalında iclas keçirilib.

Açılış nitqində baş prokuror Kamran Əliyev bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. Bu istiqamətdə atılan ardıcıl və məqsədyönlü addımlar Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan dövlətçilik strategiyasının mühüm tərkib hissəsini təşkil edib. Məhz həmin yol hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi, insan resurslarının inkişafı və fəaliyyətin şəffaflığının təmin olunması sahəsində mühüm nailiyyətlər əldə olunub.

Baş prokuror yeni inzibati binanın açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə prokurorluq əməkdaşları adından dərin təşəkkürünü bildirərək vurğulayıb ki, ölkə başçısının rəhbərliyi, daim göstərdiyi diqqət və qayğı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkili, maddi-texniki bazanın gücləndirilməsi, o cümlədən əməkdaşlar üçün yaradılan hərtərəfli iş şəraiti peşəkarlığın, iş potensialı və səmərəliliyin artırılmasına, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacaq. Baş prokuror yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə prokurorluq əməkdaşlarını təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O çıxışında bildirib ki, yaradılan müasir iş şəraiti prokurorluq əməkdaşlarından daha böyük məsuliyyət, yüksək peşəkarlıq və qanunçuluğa sadiqlik tələb edir.

Kamran Əliyev prokurorluq əməkdaşlarını daim öz üzərində çalışmağa, bilik və bacarıqlarını təkmilləşdirməyə, eləcə də fəaliyyətlərini dövlətçiliyə sədaqət, dürüstlük və obyektivlik prinsipləri əsasında qurmağa çağırıb.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# *Zərərçəkmiş şəxs:* "Ermənistan ordusu yaşayış məntəqələrini atəşə tutur, kəndlərə hücum edir, insanları öldürür, girov götürür, onlara işgəncə verirdi"





Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 25-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin ifadələri ilə davam etdirilib. Zərərçəkmiş şəxslər ifadə verdikdən sonra dövlət ittihamçılarının, zərərçəkmiş şəxslərin nümayəndələrinin, müdafiəçilərin və təqsirləndirilən şəxslərin suallarını cavablandırıblar.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin ifadə vermələri və sualları cavablandırmaları ilə davam etdirilib.

Zərərçəkmiş şəxs Ağalar Əliyev Şuşa şəhərində doğulduğunu, orta məktəbdə ermənilərlə bir yerdə oxuduğunu bildirib. O, Ermənistanın Azərbaycana ərazi iddiaları olan vaxt hüquq-mühafizə orqanlarında çalışdığını deyib.

A.Əliyev "Miatsum hərəkatı" proseslərinin 1988-ci ilin fevralında açıq şəkildə başladığını xatırladaraq qeyd edib: "Dedilər ermənilər tələb edirlər ki, Qarabağ Ermənistana verilməlidir. Əvvəlcə daş terroruna başladılar. Daş terroru ondan ibarət idi ki, Şuşadan kənara gedən bütün maşınları, o cümlədən avtobusları Əsgəranda, Xankəndinin girəcəyində, Xanabadda yığışan erməni kütləsi daşa basırdı. Bu zaman kimsə yaralanırdı, kiminsə maşınının şüşəsi qırılırdı. Sonralar ağır silahlarla yaşayış məntəqələrini atəşə tutmağa başladılar. 1991-ci il noyabrın 20-də bizim vertolyotu vurdular. Vertolyot vurulan günün səhəri Şuşada mənim toyum idi. Bu, Şuşada axırıncı toy oldu. Həmin gün birinci dəfə idi ki, ermənilər Şuşanı ağır silahlarla yaylım atəşinə tutdular. Demək olar ki, şəhəri lərzəyə saldılar".

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında zərərçəkmiş şəxs qeyd etdi ki, əfsuslar olsun, bizim onlara cavab vermək üçün heç nəyimiz yox idi. Onların isə əksinə, hər şeyləri var idi - 366-cı motoatıcı alay Xankəndidə yerləşirdi, orada xidmət edən zabitlərin, hərbi qulluqçuların çoxu erməni idi. Biz öz tabel silahımıza bir dənə güllə tapmayanda, onlarda dolu silahlar var idi.

O, dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında vertolyotların Azərbaycanın vaxtilə işğal altında olan ərazilərindən Ermənistana və geriyə hərəkət etməsindən danışıb: "Vertolyotları özüm görmüşəm. Ermənistandan adam da daşınırdı, silah da".

A.Əliyev erməni tərəfi ilə danışıqlarda iştirak etdiyini deyib. Qeyd edib ki, bir dəfə əsir və girovları dəyişdirəndən dərhal sonra erməni tərəfi onların avtobusunu atəşə tutub. Nəticədə girovluqdan xilas edilən yaralı azərbaycanlı yenidən xəsarət alıb.

O, təqsirləndirilən şəxslərdən Arkadi Qukasyanı tanıdığını, onun "Sovetskiy Karabax" qəzetinin redaktoru olduğunu bildirib. A.Əliyev qəzetdə azərbaycanlıların öz torpaqlarından didərgin salınmalarına çağırış edildiyini söyləyib. Buna nümunə kimi isə sonralar Ermənistanın müdafiə naziri olmuş Seyran Ohanyanın həmin qəzetə verdiyi müsahibəsini göstərib.



Ardınca zərərçəkmiş şəxslərin nümayəndələri, müdafiəçilər və təqsirləndirilən şəxslər zərərçəkmişə suallar veriblər.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan zərərçəkmiş şəxsin dediklərinə münasibət bildirərək, 1992-ci ildə "Sovetskiy Karabax" qəzetinin artıq çap edilmədiyini, həmin nəşrdə redaktor müavini işlədiyini, zərərçəkmiş şəxsi tanımadığını iddia edib.

Zərərçəkmiş şəxs Orduxan Kərimov da ifadəsində təqsirləndirilən şəxslərdən Arkadi Qukasyanı tanıdığını deyib. O, Ermənistan silahlı qüvvələrinin hadisə törətdiyi yerlərə istintaq qrupunun tərkibində getdiyini deyib.

O. Kərimov 1991-ci ilin yayında Sırxavənd kəndində dörd azərbaycanlının erməni silahlıları tərəfindən yandırıldığını vurğulayaraq qeyd edib: "Yandırılaraq qətlə yetirilənlər iki ata və iki oğul idi. Qaradağlıda 7 nəfər yandırılmışdı. Meşəli qətliamında isə həmin gün çatdıra bilmədik, yalnız bir gün sonra gedib çıxa bildik. Biz kəndə girəndə oradan insan ətinin iyi gəlirdi, sakinləri yandırmışdılar".

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab verən zaman Şuşanın mütəmadi olaraq raket atəşinə tutulmasından da bəhs edib: "Atışma olanda əhali evlərin zirzəmilərində gizlənirdi. Mənim üç uşağım var idi, balaca idilər. Zirzəmidə o qədər qalmışdılar ki, bədənləri yara olmuşdu".

Zərərçəkmiş şəxs Məhərrəm Hüseynov 1990-cı illərdə Şuşa Polis Şöbəsində çalışdığını, həmin vaxt Xankəndidə keçirilən mitinqlərə Şuşa ermənilərinin də cəlb edildiklərini söyləyib.

Zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarına cavab verərkən Məhərrəm Hüseynov 1992-ci il fevralın 10-dan 11-nə keçən gecə Malıbəyli və Quşçular kəndlərinə erməni silahlı birləşmələri tərəfindən hücum edildiyini, həmin kəndlərin işğal olunduğunu deyib. "Onlarla soydaşlarımızı qətlə yetirdilər. Yaralılar oldu, insanların bir hissəsini girov götürdülər. Azğınlaşmış terrorçular qısa müddət sonra - fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımını törətdilər. Xocalı soyqırımı həqiqətən də, sözün əsl mənasında, bəşər tarixində misli görünməyən bir terror idi", - deyə o əlavə edib.

M.Hüseynov zərərçəkmişlərin nümayəndəsinin həmin vaxt Şuşada ağır silahlar, o cümlədən raketlərin olub-olmaması barədə suala isə belə cavab verib: "Əgər bizim ağır texnikamız olsaydı, Xocalı soyqırımı vəhşicəsinə törədilən zaman onlara tərəf mərmi atardıq ki, qorxsunlar, çəkinsinlər".

Zərərçəkmiş şəxs Arif İbrahimov Şuşa şəhərində qohumlarına məxsus evlərin dağıdıldığını bildirərək deyib: "Evimiz Şuşada olub. Xankəndiyə də gəlib-gedirdim. Şuşada bizim qohumlara aid 32 ev var idi. Şuşa azad olunandan sonra oraya getdim, həmin evlərin heç biri yox idi".

Zərərçəkmiş Əvəz Məmmədov Şuşada anadan olduğunu, orada yaşadığını və müəllim işlədiyini deyib. O əlavə edib: "1988-ci ilin fevralında ermənilər mitinq keçirən gündən Şuşanın işğalını da planlaşdırırdılar".

Ə.Məmmədov ilk vaxtlarda Şuşadan çıxan maşınların daşqalaq edildiyini, insanlara xəsarət yetirildiyini, nəqliyyat vasitələrinin şüşələrinin qırıldığını diqqətə çatdırıb.

Zərərçəkmiş şəxs dövlət ittihamçıları Vüsal Abdullayevin və Təranə Məmmədovanın suallarına cavab olaraq bildirib ki, Ermənistan ordusu növbəti mərhələdə sakinləri azərbaycanlılar olan yaşayış məntəqələrini, o cümlədən Şuşanı atəşə tutub, kəndlərə hücum edib, insanları öldürüb, girov götürüb, onlara işgəncə veriblər.

"Növbəti mərhələdə isə Şuşa T55 tankları, ağır artilleriya, raketlər ilə atəşə tutulurdu. Dinc əhali, Şuşa qadınları gecələri körpələrlə zirzəmidə keçirirdilər", - deyə o sözlərinə davam edib.

Zərərçəkmiş şəxs Niyazi Həsənov Malıbəyli və Quşçular kəndlərinin 1991-ci il dekabrın sonlarından başlayaraq hücuma məruz qaldığını deyib. Onun sözlərinə görə, fevralın 7-dən hücumlar intensivləşib. Zərərçəkmiş şəxs fevralın 9-da özünün və anasının PDM-dən açılan atəş nəticəsində yaralandığını, bədənində indiyədək qəlpələrin qaldığını bildirib. O, baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən kəndlərə hücum edilən zaman dinc əhalinin çıxması üçün heç bir yol, dəhliz verilmədiyini vurğulayaraq qeyd edib: "Biz məcbur olub meşə ilə çıxdıq, özümüzü Ağdamın Abdal-Gülablı kəndinə çatdırdıq. Abdal-Gülablıdan bizi Ağdam xəstəxanasına apardılar. Xocalı soyqırımından sonra o xəstəxanaya xeyli yaralı gətirdilər. Bizim çarpayıları xəstəxananın həyətində şam ağaclarının altına düzdülər. Həkimlər bizə orada yardım göstərirdilər ki, ölməyək".

Zərərçəkmiş şəxs Sədirxan Əhmədov da Ermənistan ordusu tərəfindən Malıbəyli və Quşçular kəndlərinə edilən hücumdan danışaraq həmin hadisələr zamanı yaralandığını, torpaqlarının işğal edildiyini, qohumlarının öldürüldüyünü bildirib.

Məhkəmədə Niyazi Həsənov və Sədirxan Əhmədov ilə bağlı məhkəmə tibbi-ekspertizasının rəyləri də açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 28-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan David Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.




# "Sahibkarlar günü"nə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Konstitusiya və suverenlik - Azərbaycanda sahibkarlığın inkişafı" mövzusunda konfransın iştirakçılarının MÜRACİƏTİ

Möhtərəm cənab Prezident!

Azərbaycanın iqtisadi dirçəliş tarixi, sabit və dayanıqlı inkişafı, milli sahibkarlığın təşəkkül tapması və dünyada tanınması Ulu Öndər Heydər Əliyevin uzagörən siyasətinin bəhrəsidir. Sizin rəhbərliyinizlə bu strateji xətt yeni dinamizm qazanmış, dövlətin bu sahəyə göstərdiyi yüksək diqqət və qayğı sahibkarlığı mühüm hərəkətverici qüvvəyə çevirmişdir.

Zati-alinizin müdrik baxışı özəl sektorun inkişafına olan diqqəti dolğun şəkildə ifadə edir: "Sahibkarlığın inkişafı bizim üçün prioritet məsələlərdən biridir." Bu fikirlər sahibkarlara yalnız istiqamət vermir, həm də ruhlandırıcı çağırışdır - dövlətin güvəninə və dəstəyinə arxalanaraq daha böyük hədəflərə yürüməyə sövq edir.

Bu il Azərbaycanın çoxəsrlik tarixində dönüş nöqtəsi hesab olunan mühüm əlamətdar hadisə ilə yadda qalır: Konstitusiyamızın qəbulunun 30 illiyi və şanlı Vətən müharibəsində qazandığımız Qələbənin 5-ci ildönümü. Bu mühüm tarixi mərhələlərdə Azərbaycan sahibkarları da fəal iştirakçıya çevrilmiş və iqtisadi dirçəlişin önündə addımlamışdır.

Ölkəmizdə 25 Aprel - "Sahibkarlar Günü" kimi qeyd olunması artıq on ildir ki, özəl sektorun əhəmiyyətinin yüksək qiymətləndirildiyini simvolizə edir. Bu məqsədlə "Konstitusiya və suverenlik - Azərbaycanda sahibkarlığın inkişafı" konfransının təşkil olunması dövlətimizin strateji prioritetlərini - o cümlədən azad edilmiş ərazilərin yenidən qurulması və dayanıqlı inkişafın təmini istiqamətində sahibkarların rolunu önə çıxarır.

Sizin Ali Baş Komandanlığınız altında işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan irimiqyaslı bərpa-quruculuq işləri müasir inkişafın təməlidir. Hər bir sahibkar bu uğurlu quruculuq fəaliyyətində iştirak etməyi yalnız vətəndaşlıq borcu deyil, həm də tarixi missiya kimi dəyərləndirir.

Ölkəmizdə vüsət almış genişmiqyaslı islahatlar, "yaşıl iqtisadiyyat" və innovativ texnologiyalar sahəsində təqdim olunan təşviqlər sahibkarlar üçün yeni fəaliyyət istiqamətləri və investisiya imkanları formalaşdırır. Ötən il uğurla keçirilmiş COP29 kimi qlobal əhəmiyyətli tədbir eyni zamanda yerli sahibkarlar üçün "yaşıl biznes" modelləri qurmaq, beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etmək və ekolojiyönümlü məhsul və xidmətlər bazarına çıxmaq baxımından unikal fürsətlər yaradır.

Möhtərəm cənab Prezident!

Sizin həyata keçirdiyiniz islahatlar, şəffaf və rəqabətədavamlı biznes mühitin formalaşdırılması, habelə dövlət-özəl tərəfdaşlığının inkişafına sistemli yanaşmanız nəticəsində bu gün özəl sektor güclü, təşəbbüskar və milli maraqlara sadiq bir qüvvə kimi formalaşmışdır.

Biz - "Konstitusiya və suverenlik - Azərbaycanda sahibkarlığın inkişafı" mövzusunda konfransın iştirakçıları olaraq, bir daha bəyan edirik ki, milli iqtisadiyyatımızın inkişafı, ərazi bütövlüyümüzün möhkəmləndirilməsi, Böyük qayıdışın uğurla təmini, habelə Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması yolunda irəli sürdüyünüz strateji məqsədlərə çatmaq üçün bütün potensialımızla hazırıq və Sizin ətrafınızda sıx birləşmişik.

Azərbaycan sahibkarları adından Zati-alinizə dərin təşəkkürümüzü bildirir, Sizə möhkəm cansağlığı, ölkəmizin tərəqqisi naminə yorulmaz fəaliyyətinizdə davamlı nailiyyətlər arzu edirik!

*Bakı şəhəri, 25 aprel 2025-ci il*

## 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Əqli mülkiyyət hamı üçündür

**2001-ci ildən başlayaraq hər il 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə ölkəmizdə geniş tədbirlər keçirilir. Həmin tədbirlərdə Əqli Mülkiyyət Agentliyinin təşəbbüsü və təşkilatçılığı ilə mütəxəssislərin, dövlət orqanlarının (qurumlarının), ali təhsil və elmi-tədqiqat müəssisələrinin, biznes strukturlarının, habelə vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə əqli mülkiyyət mövzusunda maraqlı müzakirələr aparılır. Uğurlar təhlil olunur, problemlərin səbəbləri araşdırılır və onların aradan qaldırılması ilə bağlı "yol xəritəsi"nin konturları hazırlanır. Mübaliğəsiz demək olar ki, Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə keçirilən hər bir tədbir Azərbaycanda əqli mülkiyyət (ƏM) sisteminin daha da inkişaf etdirilməsi, gücləndirilməsi və yaradıcı şəxslərin hüquqlarının təminatının yaxşılaşdırılması işinə böyük töhfələr verir.**

Xatırladaq ki, 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günü 2000-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən təsis edilib. Bu tarixin seçilməsi "Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis olunması haqqında Konvensiya"nın 1970-ci il 26 aprel tarixində qüvvəyə minməsi ilə əlaqədardır.

Beynəlxalq Əqli Mülkiyyət Günü hər il bir deviz altında keçirilir. 2025-ci ilin devizi belədir: "Əqli mülkiyyət və musiqi: əqli mülkiyyətin ritmini hiss edin".

ÜƏMT tərəfindən bu devizin seçilməsi təsadüfi deyil: ÜƏMT bununla əqli mülkiyyət hüquqları ilə dəstəklənən kreativliyin və innovasiyanın musiqi sənayesinin inkişafına müsbət təsir göstərdiyini vurğulayır. Bu çağırış həm də yaradıcıları, yenilikçiləri və sahibkarları musiqi sənayesinə təzə ideyalar gətirməyə, hər kəsi müəlliflərin, o cümlədən bəstəkarların, ifaçıların, ümumilikdə musiqini formalaşdıranların əməyini dəyərləndirməyə, bu işdə istedadlı yaradıcıları, ixtiraçıları və sahibkarları şərəfləndirmək üçün onlara dəstək göstərməyə dəvət edir.

Aprelin 25-də ölkə Prezidentinin 2025-ci il 11 fevral tarixli sərəncamına əsasən, "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər çərçivəsində Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə Əqli Mülkiyyət Agentliyində universitetlərin və digər dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə "Əqli mülkiyyətin melodiya, harmoniya və ritmlərinin başında yaradıcılıq durur" mövzusunda "Dəyirmi masa" keçirilmiş, Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun geniş məruzəsi dinlənilmişdir.

### Musiqinin hansı elementi müəlliflik hüququ ilə qorunur?

Əqli Mülkiyyət Agentliyinin rəhbərinin vurğuladığı kimi, Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə ÜƏMT-nin elan etdiyi "Əqli mülkiyyət və musiqi: əqli mülkiyyətin ritmini hiss edin" devizi rəmzi məna daşıyır. Lakin bu deviz yeni texnologiyalar əsrində müəlliflərə və ixtiraçılara, bütövlükdə əqli mülkiyyətin yaradıcılarına, o cümlədən musiqi yaradıcılarına ehtiramın ifadəsidir. Bu mənada "Musiqinin hansı elementi müəlliflik hüququ ilə qorunur?" sualı ilk baxışdan ritorik səslənsə də, aktualdır. K.İmanovun məruzəsində əqli mülkiyyət üzrə tanınmış tədqiqatçı alimlərin gəldiyi nəticələr müqayisəli şəkildə təhlil edilərək bu suala müəllif-hüquq baxımından aydınlıq gətirilib. Qeyd edilib ki, hazırda müəlliflik hüququ üzrə peşəkar mütəxəssislər melodiyanın müəlliflik hüquqları çərçivəsində qorunmalı olduğunu qəbul edirlər. Bunun səbəbi melodiyanın musiqili əsərin digər elementləri (harmoniya və ritm) olmadan da müstəqil şəkildə ifa edilə bilməsinə dair eyni dərəcədə yekdil fikrin olmasıdır.

Əsərin qorunan və qorunmayan elementləri haqqında danışan K.İmanov əqli mülkiyyət sahəsində beynəlxalq tədqiqatçı alimlərin və mütəxəssislərin yanaşmalarını təhlil, habelə ABŞ, İngiltərə və Fransanın müəllif-hüquq qanunvericiliyinə istinad edərək, musiqili əsərin obyektiv formasının müəyyən edilmiş elementləri ilə bağlı iki əsas nəticəni qeyd edib:

1. Doktrina və məhkəmə təcrübəsində qəbul edilən daxili formanın üç elementi - melodiya, harmoniya və ritm arasından yalnız melodiya müstəqil qorunma qabiliyyətinə malik ola bilər.

2. Harmoniya və ritm melodiya ilə müqayisədə subsidiar, yəni köməkçi (ehtiyat) xarakter daşıyır. Zərurət yarandıqda, müəllif-hüquq qanunvericiliyinin melodiya ilə bağlı tətbiq olunan normaları harmoniya və ritmə də tətbiq oluna bilər (adətən, plagiatın müəyyən edilməsi zamanı). Yəni əsərin işlənmə səviyyəsi ilə bağlı oxşarlıqların və nəticələrin müqayisəli təhlilində, plagiat və ya yol verilən səviyyədə götürülməsi zamanı obyektin müstəqilliyinin qorunması.



Məruzədə "müəlliflik və patent hüququnda yaradıcılığın ümumi və fərqli cəhətləri nədən ibarətdir?" sualına da aydınlıq gətirilib. Qeyd edilib ki, müəlliflik hüququnda (formanın qorunması) "yenilik" meyarı tamamilə "yaradıcılıq" meyarı ilə əhatə olunur və müstəqil qoruma meyarı kimi artıq hesab edilir. Patent hüququnda (məzmunun qorunması) isə "yenilik" meyarı zəruridir. Çünki müxtəlif şəxslərin tədqiqat nəticələrinin obyektiv şəkildə üst-üstə düşməsi mümkündür.

Bu zaman "yenilik" və "orijinallıq" sinonim kimi başa düşülmür. Orijinallıq yenilikdən asılı olmur, çünki orijinal heç də həmişə yeni sayılmır.

### Yaradıcılıq və süni intellekt

Əqli Mülkiyyət Agentliyinin rəhbəri qeyd edib ki, hazırda hüquqi baxımdan iki tip əsər və onların yaradıcıları mövcuddur:

Birincisi, süni intellektin köməyi, yəni insanın iştirakı ilə yaradılan əsərlər - qeyri-avtonom süni intellekt (müəlliflik hüququna malik olan şəxs); ikincisi, süni intellekt tərəfindən, yəni insanın faktiki iştirakı olmadan yaradılan əsərlər -avtonom süni intellekt (burada hüquqi baxımdan müəllif mövcuddur, lakin faktiki olaraq yoxdur, hətta əqli fəaliyyət nəticəsinin hüquq obyektliyi qəbul edilsə belə, hüquq subyektliyi mövcud deyildir).

Bəs əsas problem nədən ibarətdir?

Bir sıra yurisdiksiyalarda, o cümlədən MDB ölkələrində müəlliflik hüququnun subyekti insan hesab olunur. Buna görə də, süni intellekt tərəfindən yaradılmış əqli fəaliyyətin nəticələri müəllif-insan tərəfindən yaradılmadığı üçün müəlliflik hüququnun obyekti sayıla bilməz. Çünki burada şəxsin əsərin müəllifi kimi tanınması üçün əsas meyar insanın yaradıcı əməyinin olması qəbul edilir. "Yaradıcılıq" anlayışı süni intellekt tərəfindən yaradılan əsərə" aid edilə bilərmi? Bu, ciddi sualdır.

Bununla belə dünyada mövcud tendensiya ondan ibarətdir ki, süni intellekt tərəfindən yaradılmış əsərlər yalnız kifayət qədər insan töhfəsi olduqda qorunur. Avtonom süni intellekt nəticəsində isə hüquqlar ya yaranmır, ya da prosesin təşkili ilə məşğul olan şəxsə aid edilir (Böyük Britaniya). Başqa sözlə, süni intellektin əqli fəaliyyət nəticəsi yaradıcılıq kimi, süni intellektin özü isə yaradıcı kimi qəbul edilmir.

K.İmanovun fikrincə, süni intellektin hüquq subyektliyi ilə bağlı məsələ daha mürəkkəbdir. Əksər ölkələrin məhkəmə təcrübəsi belə qənaətə gəlməyə əsas verir ki, süni intellekt müstəqil şəkildə müəllif və ya ixtiraçı statusuna malik ola bilməz. Bu o halda keçərlidir ki, ümumi hüquq sisteminə malik ölkələrdə məhkəmə təcrübəsi (presedentlər), iqtisadi baxımdan daha sürətli və səmərəli olmaqla, sonradan kontinental hüquq sisteminə malik ölkələrin qanunvericiliyinə çevik həllər təqdim edilir. Məhkəmələrin mövqeyinə görə yanaşmanın dəyişməsi yalnız qanunvericiliyin dəyişdirilməsi yolu ilə mümkündür.

Nəticə belədir ki, 2025-ci ilin əvvəlinə olan vəziyyətə əsasən, heç bir yurisdiksiyada süni intellekt əqli mülkiyyət sahəsində müstəqil hüquq sahibi (yəni müstəqil müəllif və ya ixtiraçı) olaraq tanınmayıb.

ÜƏMT-də bu məsələ üzrə 2019-cu ildən başlayaraq "Conversation on IP and AI" adlı genişmiqyaslı beynəlxalq müzakirələr aparılır, müxtəlif təkliflər səsləndirilir. Lakin bu təkliflər hələlik konsepsiya səviyyəsindədir. Bir sözlə, süni intellektə "müəllif" statusunun verilməsi hələlik tezdir. Belə ki, qlobal şəkildə razılaşdırılmış yanaşmaya ehtiyac vardır. Çünki bir ölkədə süni intellektin əqli mülkiyyət subyekti kimi tanınması, transsərhəd qorunmasına təsir göstərir (əgər hər hansı bir yurisdiksiya bu addımı atarsa, ittifaqın digər yurisdiksiyalarında qeyri-müəyyənlik yaranacaq).

Bu sahədə Avropa İttifaqında bir irəliləyiş olsa da, hələlik heç bir ölkənin qanunvericiliyində süni intellektin müəllif və ya ixtiraçı hüquqlarına malik subyekt kimi tanınmasını nəzərdə tutan dəyişiklik aparılmamışdır. Sistem de-fakto antroposentrik yanaşmanı qoruyub saxlayır - yaradıcı və ya ixtiraçı kimi yalnız insan tanınır.

Məsələnin həllinin mürəkkəbliyi ondadır ki, bu, təkcə hüquqi deyil, eyni zamanda fəlsəfi, etik-iqtisadi bir problemdir. K.İmanovun fikrincə, "Kim və ya nə hüquq daşıyıcısı statusuna layiq ola bilər? Hüquqi və mənəvi mənada "şəxsiyyəti" hansı meyarlarla müəyyən edirik? Hüquq fəlsəfəsi mövqeyindən, süni intellektin təbiəti onu hüquq subyekti kimi hesab etməyə imkan verirmi? Etika mövqeyindən düşünən maşınların mənəvi statusu nədən ibarətdir? Ontologiya mövqeyindən süni intellektin varlığı necədir, subyekt kateqoriyasına daxil edilməsi üçün avtonomluq və "şüurluluq" səviyyəsi yetərlidirmi?" kimi suallara cavab tapılmalıdır.

K.İmanov onu da diqqətə çatdırır ki, hazırda "süni intellektin yaradıcı mümkünlüyünə dair vahid yanaşmanın olmamasına baxmayaraq, zaman keçdikcə elə bir mərhələ yarana bilər ki, yaradıcılar, hüquq sahibləri və istifadəçilər arasında hüquqların bölüşdürülməsi ilə süni intellekt müəllifliyi üzrə verilmiş iddia sənədləri də qəbul olunsun, növbəti mərhələdə isə süni intellektin özünün hüquq subyektliyi də mümkün ola bilər". Bu baxımdan, o, həmçinin qeyd edib ki, "qeyri-yaradıcı verilənlər bazasının qorunması və hüquqların "elektron şəxsə" verilməsi, eləcə də əlaqəli hüquq mexanizminin istifadəsi ilə analoji olan, sui-generis qorunma mexanizmi çox əlverişlidir və süni intellektin hüquqi tanınması prinsip etibarilə qeyri-mümkün deyil. Əminik ki, hüquq sistemi təkamül edərək yeni, qeyri-ənənəvi subyektləri də əhatə edəcəkdir.

Ümumilikdə, biz süni intellektin yalnız insan tərəfindən daxil edilmiş məlumatları və obrazları təkrarladığı və buna görə də təxəyyül qabiliyyətindən məhrum olduğu fikri ilə tam şəkildə razı deyilik. Çünki insan-müəllif də öz əsərlərini mövcud olan obrazların təsiri altında yaradır. "Yaradıcılıq" anlayışının dəqiq tərifi olmadığından, kompromis kimi "əqli əmək" (fəaliyyət) terminindən istifadəni təklif etmək olar. Məsələn, ABŞ-də müəllif dedikdə, hər hansı bir obyektə öz əqli əməyi vasitəsilə dəyişiklik edən, ilk dəfə aranjeman və ya kompilyasiya yaradan şəxs başa düşülür.

Bizim mövqeyimiz ondan ibarətdir ki, süni intellektin əsər yaradılmasında olan yaradıcı töhfəsini qəbul etmək daha məntiqli və praqmatikdir. Çünki bu halda biz qanunvericiliyə cüzi dəyişikliklər etməklə bu cür əsərləri mülki dövriyyəyə daxil edə bilərik".

### Azərbaycan əqli mülkiyyət sisteminin uğurları

Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq ixtira və patent fəallığının artırılması, texnologiyaların kommersiyalaşdırılması və transferi, ixtira və faydalı modellərin beynəlxalq qeydiyyatının stimullaşdırılması, çevik patent qeydiyyatı prosedurlarının yaradılması, patentlərə dair beynəlxalq göstəricilər əsasında ölkənin texnoloji profilinin (patent landşaftının) və tədqiqat sahələrinin müəyyən edilməsi Əqli Mülkiyyət Agentliyinin diqqət yetirdiyi prioritet istiqamətlərdən biridir.

Milli əqli mülkiyyət institutunun fəaliyyət istiqamətləri yeni çağırışlara uyğun dəyişərək, daha mükəmməl və daha çevik idarəçilik funksiyaları ilə tamamlanmışdır. Əqli mülkiyyət qarşısında duran vəzifələr dövlətimizin başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü uğurlu iqtisadi islahatlar siyasəti ilə formalaşdırılıb. Bununla da əqli mülkiyyət bu siyasətin təsirinə və innovativ inkişafına adekvat xidmət etməli, investisiyaların cəlb edilməsində və innovasiyalara dəstək verilməsində bundan sonra da real aktora çevrilməli, sosial-iqtisadi uğurların aparıcı amilləri sırasında layiqli yerini tutmalıdır.

"Yaşıl" texnologiyaların ixtira və faydalı model kimi patentləşdirilməsi, onların qeydiyyata alınması prosedurları sürətləndirilmiş, daha asan icra mexanizminin yaradılmasına başlanılmışdır.

İnfrastrukturun formalaşdırılması və institusional dəyişikliklər çərçivəsində 24/7 rejimində fəaliyyət göstərən "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi daha da təkmilləşdirilmişdir. Şəffaflığın və məlumatlara əlçatanlığın təmin olunması sahəsində növbəti addım olaraq ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərə dair "Açıq reyestrlər" yaradılmışdır. Hər kəs "açıq reyestrlər"ə maneəsiz və ödəniş etmədən daxil ola, o cümlədən patent almaq və ya əmtəə nişanını qeydiyyatdan keçirmək istəyən şəxs patentlər və əmtəə nişanları barədə məlumatları əldə edə bilər.

İxtira, faydalı model və sənaye nümunələrinin ekspertizası prosedurlarının sadələşdirilməsi, o cümlədən ekspertiza müddətinin azaldılması və patentlərə əlçatanlığın asanlaşdırılması məqsədilə "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə qanun layihəsi hazırlanaraq aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış, agentlik tərəfindən 60-a yaxın qanunvericilik aktının layihələrinə dair rəy və təkliflər verilmişdir.

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının nəzdində yaradılmış agentliyin rəhbərlik etdiyi "Əqli mülkiyyət məsələləri üzrə Xüsusi İşçi Qrupu" beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılmasına və əqli mülkiyyətlə əlaqəli sahələr barədə məlumatlılığın artırılmasına dəstək göstərmiş, digər işçi qrupları arasında bu sahədə koordinasiyanı təşkil etmişdir. Bu iş indi də davam etdirilir.

133 ölkənin iqtisadiyyatını əhatə edən və təxminən 80 indikator əsasında tərtib olunmuş "Qlobal İnnovasiya İndeksi - 2024"də bilik və texnologiyaların yayılması blokunda Azərbaycan üzrə yüksək yerləri əqli mülkiyyətə aid göstəricilər tutmuşdur. Ölkəmiz QİI-nin "Bilik və texnoloji nəticələr" indikatorunun patent alt indikatorunda 50-ci yerdə qərarlaşıb. Bu da 2023-cü illə müqayisədə 13 pillə irəliləyiş deməkdir və Cənubi Qafqaz regionunda ən yüksək göstəricidir. Ölkəmiz "Yaradıcı fəaliyyətin nəticələri" indikatorunun əmtəə nişanı alt indikatorunda da 17 pillə irəliləyərək 49-cu yeri tutub. Bu göstərici üzrə regionun bir çox ölkələrindən irəlidəyik.

Patentlərin alınması ilə bağlı agentliyə daxil olmuş iddia sənədlərinin sayı (ixtira fəallığı) 2023-cü illə müqayisədə 2024-cü ildə 4 faizə yaxın artmışdır. Ölkəmiz patent sifarişləri üzrə, yəni ixtira fəallığına görə Cənubi Qafqazda liderdir. Patent fəallığı isə 2023-cü illə müqayisədə 22 faiz artmışdır.

Sənaye mülkiyyəti obyektlərinə (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) dair iddia sənədlərinin ekspertizasının müddəti orta hesabla 30-50 faiz azaldılmışdır.

2024-cü ildə müvafiq dövlət reyestrində 2844 əmtəə nişanı qeydiyyata alınmışdır.

Müəllif hüquqları sahəsində dövlət xidmətlərinin illik yekunlarına dair 2024-cü ildə 346 müəllifin (hüquq sahibinin) 660 əsəri, o cümlədən 306 müəllifə məxsus 543 əsər elektron qaydada qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən indiyədək agentlikdə 16228 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən 2125 əsər elektron qaydada qeydiyyatdan keçirilmişdir.

2003-cü ildən başlayaraq, agentlik (o vaxt Müəllif Hüquqları Agentliyi) tərəfindən Azərbaycanın Ümumi Daxili Məhsulunda (ÜDM-də) müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan sənayenin (kreativ industriyanın) payı araşdırılır, nəticələr təhlil olunur və müvafiq hökumət strukturlarına çatdırılır. Agentlikdə aparılan təhlil və hesablamalara əsasən, Azərbaycanda ÜDM-də kreativ industriyanın payı getdikcə artmaqdadır. ÜDM-də kreativ industriyanın payı 2010-cu ildəki 3,5 faizdən 2023-cü ilin yekunlarına görə 5,2 faizə çatmışdır.

Əqli mülkiyyət hüquqlarının təminatı məsələsinə gəldikdə isə pozulmuş əqli mülkiyyət hüquqlarının bərpası ilə bağlı agentliyə 100-dən çox yazılı müraciət, o cümlədən pozulmuş müəlliflik hüquqlarının bərpasına kömək göstərilməsi barədə 19, əmtəə nişanlarından qanunsuz istifadəyə dair 95 müraciət daxil olmuşdur. Müraciətlərin hər biri agentliyin səlahiyyətləri çərçivəsində araşdırılmış və nəticələrə uyğun müvafiq tədbirlər görülmüşdür.

Piratçılığa qarşı mübarizə və hüquqların təminatı üzrə tədbirlər çərçivəsində müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nəzarət markası ilə yayımının təmin edilməsi məqsədilə il ərzində 43325 nəzarət markası çap edilərək hüquq sahiblərinə təhvil verilmişdir.

Əqli mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıq çərçivəsində 2024-cü ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və əqli mülkiyyət üzrə regional qurum olan Avrasiya Patent Təşkilatı (APT) ilə əməkdaşlıq daha da genişləndirilmişdir.

Azərbaycanın milli əqli mülkiyyət sisteminin uğurlarını əks etdirən bu statistik göstəricilər ilk baxışdan quru rəqəmlər təsiri bağışlaya bilər. Lakin bunlar əldə olunan uğurların hamısı deyil. Statistik rəqəmlər də adi rəqəmlər deyil. Bunlar Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin milli əqli mülkiyyətin inkişafına göstərdiyi böyük diqqətin və qayğının göstəriciləridir.

***İradə ƏLİYEVA,*** 
***"Azərbaycan"***

# Unudulmaz müəllimim - Mir Cəlal Paşayev

**Yaşıdlarımın çoxu kimi abituriyent adını ünvanıma yazdırandan sonra kitabın birini götürüb o birini qoyurdum. İlk imtahan yazılı idi. İmtahan verib tələbə adını qazanan və yaxud da şansı - qisməti olmayıb kəsilənlər deyirdilər ki, əsas yazıdır. Bu imtahandan keçdinmi, o biriləri asan olur. Lap son məqamda ürəyimə damıbmış kimi Mir Cəlalın "Bir gəncin manifesti" romanını bir daha təkrar-təkrar oxudum. Və təsəvvür edin ki, inşaya düşən mövzulardan biri "Bir gəncin manifesti" əsərində Sona xala surətinin səciyyəsi idi. İntizar dolu günlərin sonunda imtahan vərəqimdə yazının nəticəsi kimi yüksək qiyməti görəndə sevincimdən uçmaq istədim. Ürəyimdə orta məktəb dərsliklərində verilən Mir Cəlalın nurlu şəklinə minnətdarlıq etdim.**



İlk dərs günü. Artıq Azərbaycan Dövlət Universiteti Filologiya fakültəsinin jurnalistika şöbəsinin tələbəsi idim. İlk kurs, ilk günlər çox çətin olur. Tələbə yoldaşlarımla birlikdə gah mərtəbəni dəyişik salırdıq, gah da auditoriyaları. Elə belə dəqiqələrin birində tələbələrdən kimsə: "Odur, Mir Cəlal müəllim gedir", - dedi. Mən pəncərəyə yaxınlaşana qədər artıq böyük ədib ötüb getmişdi. Təəssüfləndim. "Kaş görəydim" - sözlərini deyəsən bərkdən demişdim. Yuxarı kurs tələbələrindən biri: "Bax bu pillələrlə yuxarı qalx, ikinci mərtəbədəki qapının üstünə "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası yazılmış otaqdakı baş stolda Mir Cəlal müəllim oturur, - dedi. Orta məktəb skamyasından yenicə qalxan bir gənc üçün dərsliklərdən tanıdığı Mir Cəlalla görüşmək böyük bir hadisə idi. Lakin mən onunla görüşməyə cürət belə edə bilməzdim, yalnız qapını açıb tez də örtdüm. Vəssalam. Bir anlığa gördüyüm o gülümsər çöhrə hələ də gözlərimin qarşısındadır.

Dərs cədvəli hələ hazır deyildi. Tez-tez həm auditoriyaya girən müəllimlər, həm də dərs otaqları dəyişirdi. Nəhayət ki, kurs nümayəndəsi cədvəlin hazır olduğunu xəbər verdi. Cədvələ baxanda gözlərimə inanmadım. Ədəbiyyat fənninin qarşısında "professor Mir Cəlal Paşayev" sözləri yazılmışdı.

Həmin günü səbirsizliklə gözləyirdik. Mir Cəlal müəllimin auditoriyaya girməsi ilə səs-küy bir anda kəsildi. Hamı ona diqqət və maraqla baxırdı. O isə asta addımlarla gəlib orta sıranın qarşısındakı stolun arxasında əyləşdi. Təmkinlə bizi tələbə adını qazanmağımız münasibətilə təbrik etdi. Sonra isə asta bir səslə deyəcəyi fənni izah etməyə başladı. Danışığı ahəstə, dediyi sözlərin tutumu çox böyük olardı. Böyük ədibin tələbəsi olmuş hər kəs onun bir jestini yaxşı xatırlayır. Həmişə əlini tələbələrdən birinin çiyninə qoyardı. Bu əllərdə bir ata nəvazişi vardı. Və o, əlini çiyninə qoyduğu tələbənin həmin gün əhvali-ruhiyyəsi yüksək olardı. Çünki onun çiyninə Mir Cəlalın əli dəymişdi.

Bizim 608-ci qrupda imkansız tələbələr vardı. Onların bir çoxu əyani oxusalar da, gecə növbəsində çalışmalı olurdular. Aydındır ki, həm oxuyub, həm də işləyən həmin tələbələr gecələr yuxusuz qaldıqları üçün bəzən mühazirə saatlarında mürgüləyərdilər. Böyük ədibin dərsləri nə qədər maraqlı olsa da, məndən bir parta arxada əyləşmiş oğlanın göz qapaqları ağırlaşmışdı. Mir Cəlal müəllim həmin tələbəyə irad tutmayıb astaca məndən: "O niyə yatır?" - deyə soruşdu. Mən də eynilə onun kimi asta səslə: "Gecə növbəsində işləyir", - dedim.

Müəllimim təəssüflə həmin tələbəyə baxdı, lakin ona deyil mənə: "Zəngdən sonra kafedraya gəl", - dedi.

Düzü, bu çağırışdan bir şey anlamadım.

Mən kafedraya daxil olanda o, müəllimlərdən kiminləsə danışırdı. Geriyə qayıtmaq istədim. Mir Cəlal müəllim müsahibinə "gedə bilərsən", - deyib başının işarəsi ilə məni yanına çağırdı. Qəribə xasiyyəti vardı. Dərslərdə fərqlənən tələbələrə öz doğması kimi baxırdı və onlarla söhbətləşməyi sevirdi. Bu, müəllim, yoxsa yazıçı marağı idi, deməyə çətinlik çəkirəm. Mir Cəlal müəllimi dərsində mürgüləyən tələbə narahat etmişdi. Özü də alicənablıq edib onu deyil, məni dəvət etmişdi. Həmin tələbənin vəziyyəti ilə bağlı bir qədər sorğu-sual etdi. Sonra isə:

- Necə bilirsən, onu nəşriyyatda işə düzəltsəm işləyə bilərmi? Maaşı çox olmasa da, heç olmazsa gecənin şirin yuxusunu yatar, - dedi.

Bu qayğıdan elə təsirlənmişdim ki, tələbə yoldaşımın adından minnətdarlıq belə etməyi az qala unutmuşdum. O, diqqətlə üzümə baxıb:

- Sən dilli-dilavərsən. Sözlərimi ona elə çatdır ki, qüruru qırılmasın, - dedi.

Bax budur insanlıq, bax budur böyüklük! Kimsəyə təmənnasız yaxşılıq edəsən, özü də onun bunu necə qarşılayacağından narahat olasan!

Mir Cəlalın "Bir gəncin manifesti" əsərində bir məqam var. Sona xala böyük oğlu Mərdandan xəbər ala bilmirdi. Bir tərəfdən isə Bahar qardaşını axtarmaq üçün yola çıxmışdı. Lakin ondan da bir soraq yox idi. Bir tərəfdən nigaranlıq, digər tərəfdən aclıq güc gəlmişdi. Övladlarına yetişmək üçün evdə-eşikdə satılacaq heç nəyi qalmamışdı. Bircə "Yusif-Züleyxa" xalçasına gümanı gəlirdi. Başqa çarə yox idi! Xalçanı satmalıydı! Xalça bir ingilisin diqqətini çəkir və nə olursa-olsun onu almaq istəyir. Sona xala əvvəlcə xalçanı vermək istəyir, lakin onun yabançı olduğunu biləndə "İtə ataram, yada satmaram!" - deyib ingilisin əlindən alır.

İnsanda necə böyük qürur, qətiyyət, cəsarət olmalıdır ki, ən çətin anında belə milli varlığını qoruya bilsin! Sınmasın, alçalmasın, kimsənin tikəsinə boyun əyib mütiləşməsin!

Sona xala azərbaycanlı qadının tam bir obrazıdır. Milli-mənəvi dəyərlərə möhkəm tellərlə bağlı, acılığın, çarəsizliyin belə əyə bilmədiyi bir obrazı yalnız Mir Cəlal kimi qüdrətli qələm sahibi yarada bilərdi. Bax müdriklik budur! Dediyin söz, qələmə aldığın fikir bütün zamanlar üçün məqamlı olur.

Mir Cəlal söz sərrafı, sözə, qələmə sahiblik edə bilən bir ədib, bir ustad idi. Lakin onun tələbəsi olmuş hər kəsin qəlbində həm də asta danışan, təmkinli durub-oturan, imtahan və zaçotlarında tələbəsinə "iki" qiymət verməyə əli gəlməyən bir Mir Cəlal obrazı da yaşayır.

Buna həmişəyaşar da deyirlər!

*Rəfiqə SADIQOVA*

# Qərbi Azərbaycan: tarix saxtakarlıq götürmür

**BMT-nin İnsan Haqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və Qaçqınların Statusu haqqında 1951-ci il Konvensiyası kimi beynəlxalq sənədlər hər bir insanın doğulduğu ərazidə yaşamaq hüququnu, etnik mənsubiyyətinə görə təqib olunmamaq prinsipini təsbit edir. Azərbaycanlıların zaman-zaman Qərbi Azərbaycandan zorla deportasiyası isə bu hüquqların kobud şəkildə pozulmasıdır.**

1905-1906-cı illərdə başlayan kütləvi qırğınlar, 1918-1920-ci illərdə Azərbaycan əhalisinə qarşı törədilən qətliamlar, 1948-1953-cü illərdə sovet hökumətinin dəstəyi ilə həyata keçirilən deportasiya və nəhayət, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan tamamilə qovulması göstərir ki, bu proses məqsədyönlü şəkildə və sistemli formada icra olunmuşdur. Tarixi cinayətlərin cəzasız qalması isə Ermənistanın bu siyasəti davam etdirməsinə şərait yaratmışdır.

XX əsrin sonlarında baş verən son deportasiya dalğasından sonra da Ermənistanın azərbaycanlılara qarşı təzyiq və düşmənçilik siyasəti səngiməmiş, əksinə, yeni formalar almışdır. Ermənistanın işğalçılıq siyasəti yalnız deportasiya və qətliamlarla məhdudlaşmamış, eyni zamanda Azərbaycan torpaqlarının 30 ilə yaxın müddətdə işğal altında saxlanması ilə davam etmişdir. 1990-cı illərin əvvəllərində Ermənistanın silahlı təcavüzü nəticəsində Qarabağ və Şərqi Zəngəzurdan bir milyondan çox azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu, Ermənistanın monoetnik dövlət siyasətinin təkcə Qərbi Azərbaycanla məhdudlaşmadığını, daha geniş miqyasda Azərbaycan torpaqlarına yönəldiyini göstərən faktlardan biridir.

Quba qətliamının məzarlığı, Şamaxı qətliamları, Göyçə və Zəngəzurda baş verən faciələr bu dövrdə azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasətinin dəhşətli sübutları kimi bəşəriyyətə qarşı törədilmiş soyqırım kimi öz hüquqi statusunu almalıdır. Dəhşətlisi budur ki, bu proses sovet dönəmində də dayanmamış, 1948-1953-cü illərdə Stalin rejiminin qərarı ilə minlərlə azərbaycanlı zorla öz doğma torpaqlarından köçürülmüşdür. Onlar ağır iqlim şəraitinə və çətin məişət şərtlərinə uyğun olmayan ərazilərə sürgün edildi, nəticədə çox sayda insan həyatını itirmişdir.

1988-1991-ci illərdə isə Ermənistan hakimiyyəti tərəfindən son deportasiya dalğası həyata keçirildi və Ermənistanda yaşayan yüz minlərlə azərbaycanlı öz doğma yurdlarından qovuldu, onların evləri talan edildi, tarixi-mədəni irsi məhv edildi. Bu proses zamanı minlərlə insan qətlə yetirildi, yüzlərlə ailə ağır işgəncələrə və zülmə məruz qaldı.

Bütün bu faktlar onu göstərir ki, azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası təkcə müəyyən dövrlərdə baş vermiş spontan hadisə deyil, sistematik və məqsədyönlü şəkildə həyata keçirilmiş siyasətin nəticəsidir. Bu gün tarixi ədalətin bərpası və azərbaycanlıların doğma torpaqlarına qayıdışı məsələsi beynəlxalq hüquq müstəvisində ciddi müzakirə olunmalı və dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır.

Ermənilər uydurma "erməni soyqırımını" dünyaya car çəkib bəyan etməklə həyasızcasına özlərini məzlum kimi təqdim etməyə çalışır, beynəlxalq ictimaiyyəti aldadaraq siyasi və maddi dividendlər qazanmağa cəhd edirlər. Lakin azərbaycanlılara qarşı törədilən etnik təmizləmə siyasəti, onların doğma torpaqlarından mərhələli şəkildə deportasiya olunması, kütləvi qətliamlar, mədəni irsin məhv edilməsi və tarixi izlərin silinməsi bu gün də çox vaxt görməməzlikdən gəlinir.

Ciddi narahatlıq doğuran digər bir məsələ də mədəni irsimizə qarşı yönələn vandalizm aktlarıdır. Etnik təmizlənmə siyasəti ilə yanaşı, erməni şovinistləri Azərbaycan-türk izlərinin Qərbi Azərbaycan torpaqlarından silinməsi üçün görünməmiş vandalizm aktlarına əl atmışlar. Tarixi abidələr, qədim məscidlər, qəbiristanlıqlar və mədəni irs nümunələri ya tamamilə dağıdılmış, ya da erməniləşdirilmişdir. Məqsəd Qərbi Azərbaycanın əsl sakinlərinin tarixi varlığını inkar etmək və bu əraziləri guya "tarixən ermənilərə məxsus" ərazi kimi qələmə vermək olmuşdur. Bu gün Ağrı dağını "Ararat", Qarabağı "Artsax" adlandırmaqla qədim türk toponimlərini təhrif edən erməni ideoloqları, tarixi saxtalaşdırmaq və ermənilərin bu ərazilərə aid olduğu barədə saxta rəy formalaşdırmaq siyasətini yürüdürlər.



Təəssüf ki, bu proses erməni ideoloqları və Ermənistan rəhbərliyi tərəfindən sistemli şəkildə, dövlət səviyyəsində aparılmış, beynəlxalq ictimaiyyətin diqqətindən yayındırılmağa çalışılmışdır. Bu məqsədlə erməni tərəfi uzun illər ərzində tarixi saxtakarlıq, siyasi manipulyasiya və dezinformasiya üsullarından istifadə edərək öz fəaliyyətini ört-basdır etməyə cəhd göstərmişdir. Ermənistanın rəsmi dairələri və diaspor təşkilatları dünya ictimaiyyətini çaşdırmaq üçün müxtəlif platformalarda saxta narrativlər uydurmuş, beynəlxalq təşkilatlarda yalançı erməni tarixi ilə bağlı lobbiçilik fəaliyyəti aparmış, eyni zamanda azərbaycanlıların tarixi torpaqlarından zorla qovulması, onların mədəni və dini irsinin məhv edilməsi kimi faktlar məqsədyönlü şəkildə ört-basdır edilmiş, Qərbdə və digər ölkələrdə yayılan erməni təbliğatı bu həqiqətləri kölgədə qoymağa çalışmışdır.

Bu gün erməni məktəblərində tədris olunan tarix dərsliklərinə nəzər salsaq, orada heç bir tarixi və elmi əsası olmayan, Azərbaycana və Türkiyəyə qarşı nifrət və düşmənçilik aşılayan saxta məlumatların sistemli şəkildə yer aldığını görərik. Bu dərsliklərdə ermənilər özlərini "əzabkeş xalq" kimi təqdim edir, Azərbaycan və Türkiyəni isə daim "düşmən" obrazında göstərirlər. Ümumilikdə türk dünyasına qarşı əsassız iddialar irəli sürülür. Uydurma "erməni soyqırımı" məsələsi gənc nəsillərə həqiqət kimi sırınır, Azərbaycan torpaqlarının guya "tarixi erməni yurdu" olduğu iddia edilir. Bundan başqa, 1905-1906-cı illərdə və 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qırğınlar tamamilə gizlədilir, XX əsrin sonunda Ermənistanın monoetnik dövlətə çevrilməsi üçün həyata keçirilən deportasiya və etnik təmizləmə siyasətləri isə, ümumiyyətlə, bəhs edilmir. Bu cür saxtalaşdırılmış tədris materialları gənc erməni nəsillərinin zehniyyətində radikal millətçiliyi və azərbaycanofobiya ideyalarını gücləndirir, gələcəkdə bölgədə sülh və qarşılıqlı anlaşma imkanlarını daha da çətinləşdirir. Azərbaycan və beynəlxalq təşkilatlar bu cür nifrət ideologiyasının qarşısını almaq üçün tədbirlər görməli, təhsilin siyasət alətinə çevrilməsinə qarşı çıxmalıdırlar.

Tarixi həqiqətlərin saxtalaşdırılması, uydurma "erməni soyqırımı" iddialarının gənc nəsillərə sırınması və Azərbaycan torpaqlarının guya "tarixi erməni yurdu" kimi təqdim edilməsi regionda sülh və sabitliyə ciddi təhdid yaradır. Azərbaycan dövləti bu kimi təxribat xarakterli ideologiyaların ifşası üçün diplomatik, hüquqi və informasiya müstəvisində ardıcıl addımlar atır.

Bununla yanaşı, beynəlxalq təşkilatlar da Cənubi Qafqazda real sülhün təmin edilməsi üçün Ermənistanın tarix və təhsil siyasətində köklü dəyişikliklər etməsini tələb etməli, nifrət ideologiyasının tədris proqramlarından çıxarılmasına nəzarət etməlidirlər. Yalnız bu halda bölgədə uzunmüddətli sabitlik və qonşu xalqlar arasında etimadın bərpası mümkün ola bilər.

Bu gün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, tarixi ədalətin bərpası və azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdış hüququnun tanınması beynəlxalq hüquq və ədalət prinsipləri çərçivəsində ciddi müzakirə mövzusu olmalıdır. Bu məsələ, sadəcə regional əhəmiyyət daşımayıb, qlobal miqyasda insan hüquqları və beynəlxalq hüququn təməl prinsiplərinin təminatı baxımından əhəmiyyətli presedent təşkil edir. Məsələnin əhəmiyyətini nəzərə alaraq, BMT Təhlükəsizlik Şurasının məcburi köçkünlərin öz evlərinə qayıtmaq hüququnu təsbit edən qətnamələrinin praktiki implementasiyası üçün konkret addımların atılması zəruridir. Beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən məsələyə ikili standartlar kontekstindən yanaşılması qəbuledilməzdir və qlobal ədalət prinsiplərinə ziddir.

Tarixi-hüquqi araşdırmalar və arxiv materialları əsasında aparılan fundamental tədqiqatlar Azərbaycan torpaqlarının aborigen əhalisinin məhz azərbaycanlılar olduğunu sübut edir. Azərbaycan həqiqətlərinin obyektiv şəkildə dünyaya çatdırılması və tarixi ədalətin bərpası həm hüquqi, həm də əxlaqi imperativ kimi diqqət mərkəzində saxlanılmalıdır. Bu, yalnız Azərbaycan üçün deyil, bütövlükdə beynəlxalq hüquqi sistemin dayanıqlılığının və etibarlılığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

*Nüşabə SEYİD,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

# "Həmkardan həmkara qayğı ilə" sosial layihəsi Şabran rayonunda davam etdirilib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və "Referans Medical Group"un dəstəyi ilə keçirilən "Həmkardan həmkara qayğı ilə" sosial layihəsi aprelin 23-24-də Şabran rayonunda davam etdirilib.**




Əvvəlcə Şabran şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.





Şabran Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən ödənişsiz səyyar tibbi müayinə zamanı onkologiya, kardiologiya, nevrologiya, psixiatriya, ginekologiya və endokrinologiya sahəsi üzrə peşəkar həkim heyəti tərəfindən müayinələr aparılıb.

İki gün ərzində ümumilikdə 700-dən artıq vətəndaşa 1100-dən çox tibbi xidmət göstərilib. Səhhətində problem aşkarlanan sakinlərə tibbi məsləhətlər verilib, müvafiq müalicələr təyin olunub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən müayinəyə gələn uşaqlara hədiyyələr verilib. Tədbirin təşkilində AHİK könüllüləri də iştirak ediblər.





Qeyd edək ki, səyyar tibbi müayinələr üzvlərimizin sağlamlığını qorumaq, tibbi xidmətlərə əlçatanlığı daha da artırmaq və dövlətimizin sosial siyasətinə dəstək vermək məqsədilə təşkil olunur. Layihənin ölkəmizin digər dağ, dağətəyi və sərhədyanı rayonlarında da keçirilməsi nəzərdə tutulur.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Kanada ikiüzlü siyasəti ilə sülhə qarşı çıxır

**Kanada özündən minlərlə kilometr uzaqda olan Azərbaycana qarşı hər zaman qərəzli mövqedə olub. Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra isə Ottavanın ikiüzlü siyasəti bir qədər də artıb. Səbəb erməni lobbisinin Kanada xarici siyasətinə birbaşa müdaxilə etmək imkanlarına malik olmasıdır. Buna görədir ki, adıçəkilən ölkənin siyasətçiləri hayların çaldıqları istənilən havaya məmnuniyyətlə oynayır, erməni ağzı ilə danışırlar.**

Digər bir vacib məqam da Kanadanın müstəmləkəçi Fransanın təsir dairəsində olması və onun sözü ilə oturub durmasıdır. Məsələn elə Kanadanın Aİ-nin hərbləşdirilmiş missiyasına qoşulan yeganə qeyri-Avropa ölkəsi olmasının səbəbi də Fransa amili ilə bağlıdır.

### Melani Coli öz ampluasındadır

İkinci Qarabağ müharibəsi zamanı Kanadanın ölkəmizə qarşı atdığı xoşagəlməz addımları hər kəs xatırlayır. Bu ölkə savaş vaxtı Azərbaycanın işğalçı Ermənistan ordusuna qarşı "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından (PUA) istifadə etməsinə görə 2020-ci ilin oktyabrında Türkiyəyə müdafiə sənayesi məhsullarının ixracına embarqo tətbiq etmişdi. Kanada xarici siyasət idarəsinə rəhbərlik etmiş Fransua-Filipp Şampan Azərbaycanı ittiham edən bəyanatlar vermişdi.

Azərbaycana qarşı qarayaxma kampaniyasında Kanada xarici işlər naziri Melani Coli xüsusi canfəşanlığı ilə seçilir. Ermənidən artıq ermənilik edən bu nazir 44 günlük müharibədən sonra Ermənistana mütəmadi səfərlər edir, bölgədəki gerçək vəziyyətdən tamamilə uzaq və ölkəmizi ittiham edən bəyanatlar verirdi. Azərbaycan əraziləri üzərində suverenliyini tam təmin edəndən sonra - 2023-cü ilin oktyabrında Ermənistanda səfərdə olan M.Coli bölgədə heç bir humanitar böhran olmamasına baxmayaraq, bunun əksini iddia etmiş, ölkəmizə qarşı böhtan və iftiralar səsləndirmiş, hətta Kanadanın Azərbaycana qarşı tədbir kimi sanksiya variantını istisna etmədiyini söyləmişdi.

Cənubi Qafqazda cərəyan edən hadisələrdən zərrə qədər xəbəri olmayan bu soyuq və uzaq ölkənin XİN rəhbəri bu günlərdə sosial şəbəkə hesabında növbəti dəfə erməni dəyirmanına su tökən, reallıqdan tamamilə uzaq olan və başdan-başa erməni yalanlarından ibarət müraciəti ilə göstərdi ki, o hələ də öz ampluasındadır. Yenə də qərəz, ikili standartlar, riyakarlıq Kanada xarici işlər nazirinin prioritet fəaliyyət istiqamətləri kimi qalmaqdadır.

Aprelin 24-də paylaşdığı həmin videomüraciətdə saxta erməni soyqırımından bəhs edən Melani Coli Qarabağı könüllü şəkildə tərk edən ermənilərdən danışıb, şişirdilmiş rəqəmlər səsləndirib. Dünyada belə bir ərazi vahidi olmadığı halda paylaşımında "Dağlıq Qarabağ" ifadəsi işlədən Melani Coli bununla Kanadanın Azərbaycanın suveren ərazilərini şübhə altına aldığını göstərib.




Əslində, Melani Coli də yaxşı bilir ki, Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 1980-ci illərin sonlarında üç yüz min azərbaycanlı yurdundan didərgin salınıb. Ermənistandan deportasiya edilən insanlarımıza qarşı görünməmiş qəddarlıqlar törədilib. Bu gün də qərbi azərbaycanlıların qayıdış hüququ təmin olunmayıb. Eyni zamanda Ermənistanın işğalçılığı yüz minlərlə azərbaycanlını məcburi köçkünə çevirib. Həmin vaxt Ermənistan dinc sakinlərimizə qarşı qətliam, soyqırımı həyata keçirib, qətlə yetirilən azərbaycanlıları kütləvi məzarlıqlarda basdırıb. Qarabağ və Şərqi Zəngəzurda aşkarlanan kütləvi məzarlıqlar da bunlara nümunələrdir. Xalqımıza qarşı çoxsaylı cinayət əməlləri törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin Bakıda keçirilən ədalət məhkəməsində də Ermənistanın həyata keçirdiyi müharibə cinayətləri faktlarla ortaya qoyulur.

### "Erməni diasporunun saxta hekayələrinə deyil, faktlara əsaslanın"

"Kanadanın xarici işlər naziri olan bir şəxsin, ölkənin milli maraqlarına üstünlük vermək və beynəlxalq aləmdə nüfuzunu qorumaq əvəzinə, Kanada Erməni Milli Komitəsinin maraqlarını müdafiə etməsi, bu vəzifə üçün zəruri olan təhliletmə qabiliyyəti və məlumatlılıq səviyyəsi nöqteyi-nəzərindən ciddi narahatlıqlar doğurur".

Bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Kanada XİN rəhbəri Melani Colinin "X" sosial şəbəkəsində 1915-ci il hadisələri ilə bağlı müraciətinə cavabında səsləndirib.

"Təəssüf ki, siz heç bir zaman 1 milyondan artıq azərbaycanlının Ermənistan tərəfindən törədilmiş etnik təmizləmələrə, qətliamlara, vəhşiliklərə, mədəni irsin məhv edilməsinə və digər insanlıq əleyhinə cinayətlərə məruz qalması məsələsinə toxunmamısınız. Bununla bağlı deyilən gözəl bir söz var: "Qərəz kölgə kimidir, zəkanın işığını söndürür. Sadəcə bir xatırlatma: hər zaman faktlara əsaslanın, erməni diasporasının saxta hekayələrinə deyil", - A.Hacızadə özünün "X" sosial şəbəkə hesabında bildirib.

XİN sözçüsü vurğulayıb ki, 2023-cü ildə Azərbaycan tərəfindən həyata keçirilmiş antiterror tədbirləri ölkə ərazisində yerləşmiş qeyri-qanuni Ermənistan hərbi birləşmələrinin təxribatlarına qanuni və mütənasib cavab idi: "Cəmi 24 saatdan az davam edən bu əməliyyat, beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə, qanunsuz erməni hərbi birləşmələrinin və onların infrastrukturunun zərərsizləşdirilməsinə yönəlmişdi. Mülki əhali və infrastruktur hücuma məruz qalmayıb, bölgədən ermənilərin köçməsi isə onların könüllü seçimi olub".

Tarixi reallıqları saxta, uydurma formada təqdim edərək beynəlxalq hüquq ayaqlar altına atan M.Colinin riyakar paylaşımı həm də ümumilikdə Kanada və digər Qərb ölkələrinin Azərbaycan əleyhinə yürütdükləri qərəzli siyasətin mənzərəsini aydın şəkildə ortaya qoyur.

Həmin ölkələr ki, Ermənistana siyasi dəstək verərək, silahlandıraraq revanşa hazırlayır, müharibəyə təhrik edir, Qarabağı öz xoşları ilə tərk edən bir ovuc erməninin ətrafında manipulyasiya aparırlar.

Bütün bu məkrli fəaliyyət isə məhz Azərbaycanın təşəbbüsləri və səyləri sayəsində Cənubi Qafqazda normallaşma üçün yaranmış əlverişli mühiti pozmaq niyyəti ilə həyata keçirilir. Bu baxımdan, Kanadanın ikiüzlü siyasətinin də bölgədə sülhü təhdid etdiyi danılmaz reallıqdır.

Yaxşı olar ki, aborigen xalqların soyqırımı nəticəsində yaranan Kanada özündən minlərlə kilometr uzaqda olan Cənubi Qafqazın ona heç bir dəxli olmayan işlərinə burnunu soxmaqdansa, hazırda üzləşdiyi - ABŞ-nin 51-ci ştatına çevrilmək kimi yeni çağırışları ilə məşğul olsun.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Əsl erməni xisləti

### İrəvanda bayrağımızın yandırılması daxildə kök salmış düşmənçiliyin təzahürüdür

**"Ermənistanda Azərbaycan bayrağının yandırılması bütövlükdə ölkədə hökm sürən siyasi, ictimai ideoloji atmosferin təzahürüdür. Hadisə simvolik olaraq bir millətin, dövlətin, xalqın şəxsiyyətinə qarşı yönəlmiş hücumdur. Əlbəttə ki, heç bir halda ifadə azadlığı qiymətləndirilməməlidir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev deyib. O bildirib ki, bu kimi hadisələr, eyni zamanda, sülh prosesinə qarşı açıq və qəsdən törədilmiş təxribat aktı olmaqla yanaşı, ümumilikdə, regionda formalaşmağa başlayan yeni təhlükəsizlik arxitekturasına qarşı da yönəlmiş sabotaj cəhdi kimi qəbul edilməlidir. Azərbaycan və Türkiyə bayraqlarının yandırılması Ermənistanın daxilində, xüsusilə də siyasi və ictimai çevrələrdə kök salmış düşmənçilik atmosferini və revanşist əhvali-ruhiyyəni bir daha üzə çıxardı. "Eyni zamanda Azərbaycan xalqına, ümumiyyətlə, türk millətinə qarşı köklü düşmənçiliyin nə qədər dərinə getdiyini əyani şəkildə nümayiş etdirdi. Təbii ki, bu, Ermənistan cəmiyyətinin hələ də sülhə hazır olmadığını və regionda dinc birgə yaşayış ideyasından kənarda dayandığını göstərir. Fikrimcə, bir cəmiyyətdə sülhə çağırış əvəzinə təhqir, aqressiya və rəmzi zorakılıq normal qarşılanırsa, deməli, orada sülh mədəniyyəti hələ də formalaşmayıb. Ermənistanda faktiki olaraq bu, belədir. Digər tərəfdən, bu hadisə Ermənistan daxilində fəaliyyət göstərən radikal qüvvələrin sülh prosesinə məqsədyönlü şəkildə zərbə vurmaq cəhdlərinin tərkib hissəsi kimi də qiymətləndirilməlidir. Çünki radikal qüvvələr bu hadisələrdən istifadə edirlər. Onlar uzun illərdir Ermənistan xalqı arasında revanşist düşüncələrini təbliğ edirlər. İndi də Azərbaycanla hər hansı sülh razılaşmasını "xəyanət" kimi əhaliyə tirajlayırlar. Əslində, onların məqsədi Ermənistanın regionda sabitlik və əməkdaşlıq platformasına çevrilməsinə imkan verməməkdir. Ölkəni davamlı olaraq qeyri-sabitlik içində saxlamaq, bu yolla həm daxili siyasi təsir güclərini qorumaq, həm də bəzi xarici dairələrin dəstəyini itirməməkdir", - deyə ekspert əlavə edib.

F.Abdullayev vurğulayıb ki, baş vermiş hadisə Ermənistanda sülh gündəliyinə münasibətdə hakimiyyətlə ictimaiyyət arasında mövcud yanaşmanın nə qədər fərqli olduğunu göstərir. Ermənistan hakimiyyət nümayəndələrinin beynəlxalq platformalarda manipulyasiya məqsədilə mütəmadi olaraq sülhə hazır olduqlarına dair səsləndirdikləri bəyanatlarının ritorikadan başqa bir şey olmadığını bütün dünya görür. Azərbaycan rəsmiləri Ermənistan hakimiyyətinə əhalisini sülhə hazırlamaqla bağlı dəfələrlə çağırışlar edib.

Ekspert qeyd edib ki, bütün bunlar Ermənistanda yalnız siyasi elitanın deyil, eyni zamanda cəmiyyətin bir hissəsinin real sülh prosesinə hazır olmadığını deməyə əsas verir: "Revanşizm, nifrət hələ də ermənilərin ictimai şüurunda dominant mövqedədir. Bu isə sülh danışıqlarının yalnız texniki bir prosesə deyil, həm də dərin ictimai transformasiyaya ehtiyac duyan mürəkkəb bir çağırış olduğunu deməyə əsas verir. Çünki Ermənistan cəmiyyəti daxilində bu cür radikal yanaşmanın populyarlaşması, nifrətin açıq ifadəsi, həmçinin son vaxtlar şərti sərhəddə törədilən təxribatlar gələcəkdə dinc birgəyaşayışa maneə yaradır. Bir



ölkənin ictimai rəyində sülh deyil, düşmənçilik dominantdırsa, əlbəttə ki, orada sülh müqaviləsi formal sənəddən o yana keçə bilməz. Azərbaycan sazişi formal şəkildə imzalamaq istəmir. Regionun sabitliyi və rifahı qarşılıqlı hörmət və sülh əsasında mümkündür. Bu isə təkcə dövlətlər arasında danışıqlarla deyil, eyni zamanda cəmiyyətlərin davranışı, ictimai rəyin formalaşması və qarşı tərəfə münasibətlə müəyyən olunmalıdır. Fikrimcə, Ermənistanın ictimaiyyəti və siyasi dairələri anlamalıdırlar ki, XXI əsrdə regionun təhlükəsizliyi nifrətlə və ya revanşist ambisiyalarla qurula bilməz".

Siyasi şərhçi bildirib ki, cəmiyyətin sülhə hazırlanmasına yalnız beynəlxalq danışıqlarla deyil, siyasi iradə, təhsil, media və ictimai resursların iş birliyi ilə nail olmaq lazımdır. O düşünür ki, əgər Ermənistan hakimiyyəti real, davamlı sülh istəyirsə, ilk növbədə, öz daxilində nifrət ritorikasına son qoymalı, məsələyə hüquqi qiymət verməli və təbliğat vasitəsilə cəmiyyətində tolerantlıq və qarşılıqlı hörmət prinsiplərini təşviq etməlidir. Ermənistanda gənc nəsildə barışa deyil, kin və intiqam hissinə zəmin yaradılır. Azərbaycan xalqı və dövləti bu kimi təxribatlara qarşı ayıqdır. Sülhün yalnız bərabərlik, qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində mümkün olduğunu hər zaman bəyan edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Soyqırımına ermənilər yox, azərbaycanlılar məruz qalıblar

### Revanşistlər nə tarixi həqiqətlər sorağındadır, nə də sülh istəyirlər

**Ermənistanın paytaxtı İrəvanda qondarma "erməni soyqırımı" ilə bağlı təşkil olunan yürüşdə növbəti dəfə təxribat törədildi. Yürüş iştirakçıları Türkiyə və Azərbaycan bayraqlarını yandırdılar. Bununla da ürəkləri soyumadı. Nifrət dolu şüarlar səsləndirdilər. Sonra da əllərində məşəllərlə yürüşə başladılar.**

"Məşəl yürüşü"nü bu il "imtina etmə" şüarı altında keçirirlər. Əslində isə, təxribatçı ermənilər "imtina etmə" söyləməkdənsə, özlərinə "yalanlardan əl çək, həqiqətləri etiraf et" deməlidirlər. Çünki tarixdən danışırlarsa, o zaman faktları ört-basdır etməyə çalışmamalıdırlar. Yüz on il qabaq keçmiş Osmanlı imperiyasında ermənilərin kütləvi şəkildə öldürüldüyünü iddia edirlərsə, arxivləri araşdırsınlar, tarixi sənədləri oxusunlar və etiraf etsinlər ki, heç zaman, heç bir ölkənin ərazisində ermənilərə qarşı soyqırımı həyata keçirilməyib.

Yurdları olmayan, özgə torpaqlarında məskən salmaq, binələnmək niyyəti onların babalarını bizim ərazilərimizə gətirib. Elə həmişə də xislətində məkr, riyakarlıq, qəddarlıq olan, dondan-dona girməyi yaxşı bacaran ermənilər sonralar öz uydurmalarına, boş xülyalara o qədər aludə olublar ki, "böyük Ermənistan" yalanını ortaya atıblar. Hər fitnəyə əl atıblar. Uydurmalarına tərəfdarlar tapmaq üçün min oyundan çıxıblar. Məqsədlərinə, planlarına görə, dövrün ab-havasına baxıb Azərbaycan xalqı ilə gah mehriban dost, gah rəhimsiz, əzazil düşmən olublar. Təxribatlar törədərək aranı qızışdırıblar, torpaqlarına sığındıqları yerli sakinlərin cəlladına çevriliblər. Silahlı hücuma keçiblər, soydaşlarımızı işgəncələr verməklə vəhşicəsinə qətlə yetiriblər, soyqırımları həyata keçiriblər.

Yüz on il qabaq baş verənlərə gəlincə də, "tarixi araşdırın, arxiv materiallarını, sənədləri, şahid ifadələrini oxuyun, əslində, kimlərin qətliama, soyqırımına məruz qaldığını, kimlərin qəddar cinayətkar, amansız qatil olduğunu görün və etiraf edin", - deyirik.

Qardaş Türkiyə də hər zaman tarixin olduğu kimi təqdim edilməsi mövqeyindən çıxış edir. "1915-ci il hadisələri ilə bağlı tarixi faktlara və beynəlxalq hüquqa zidd olan hər hansı bəyanatı tamamilə rədd edirik. Keçmişin acılarını siyasi səbəblərdən istifadə etmək cəhdlərinin heç bir əsası yoxdur" - Türkiyə XİN-nin bu günlərdə yaydığı bəyanatda bildirilib. Türkiyə qlobal səviyyədə və öz bölgəsində hər zaman sülh, dialoq, qarşılıqlı anlaşma və ortaq rifahın inkişafının tərəfdarı olduğunu vurğulayıb. Bəyanatda bildirilib: "Ölkəmiz bu anlayışla arxivlərini açmış, 1915-ci il hadisələrini ədalətli və elmi şəkildə araşdırmaq üçün Birgə Tarix Komissiyasının yaradılmasını təklif etmişdir. Sizə xatırladırıq ki, radikal dairələrin tarixdən düşmənçilik yaratmaq cəhdlərinə təşviq edilməməlidir və Türkiyə




ilə Ermənistan arasında davam edən normallaşma prosesinə dəstək çağırışımızı təkrar edirik".

Lakin Ermənistanın paytaxtında törədilən son təxribat - Türkiyə və Azərbaycan bayraqlarının yandırılması bir daha göstərdi ki, revanşistlər nə tarixi həqiqətlər sorağındadırlar, nə də sülh istəyirlər.

Azərbaycan və Türkiyə bayraqlarının yandırılması erməni barbarlığının, vandalizminin bariz nümunəsidir.

Ermənistanın baş naziri Nikol Paşinyan İrəvanda qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsinə həsr olunmuş "məşəl yürüşü"ndə Azərbaycan və Türkiyə bayraqlarının yandırılmasını pislədi. Baş nazirin mətbuat katibi Nazeli Bağdasaryan Nikol Paşinyanın bunu təxribat adlandırdığını bildirdi: "Baş nazir Paşinyan belə praktikanı pisləyir, bunu məsuliyyətsiz və qəbuledilməz hesab edir. Beynəlxalq səviyyədə tanınmış dövlətin, xüsusən də qonşu dövlətlərin bayraqlarının yandırılmasına dövlət başçısı başqa cür baxa bilməz. Bu, təxribat və qızışdırıcı praktikadır".

Ermənistanın baş nazirinin də məsuliyyətsiz və qəbuledilməz hesab etdiyi, təxribat adlandırdığı bu hadisə Ermənistanın paytaxtında reallaşıb. Baş verənlər göstərir ki, Nikol Paşinyan yenə revanşistlərə meydan verir. Belə olmasaydı, erməni vandallarına başqa ölkənin dövlət atributlarına hörmətlə yanaşılmalı olduqları hüquq çərçivəsində izah edilər, cinayət əməllərinə görə məsuliyyətə cəlb olunaraq qanun qarşısında cavab verərlər.

Azərbaycan dövləti və xalqı sülh məramına sadiqdir. Dövlətimizin başçısı İlham Əliyevin bəyan etdiyi kimi, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb. Dövlətimiz sülh sazişinin imzalanması istiqamətində ardıcıl və qətiyyətli addımlar atır.

XX əsrin ayrı-ayrı illərində erməni vandallarının soyqırımına məruz qalan Azərbaycan xalqıdır. Erməni cəlladlarının 1990-cı illərdə Azərbaycanın Xocalı, Ağdaban, Meşəli, Qaradağlı, Başlıbel və daha neçə-neçə ərazisində törətdikləri qətliamların, soyqırımların şahidləri bu gün də aramızdadır. Həmin dəhşətli cinayətləri həyata keçirənlərin bəziləri bu gün qanun qarşısında cavab verir, cinayətkar olduqlarını məhkəmə prosesində özləri də etiraf edirlər. Şahidlərin ifadələri də bunu təsdiqləyir. Xatırladaq ki, Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərləri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilirlər. Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb olunmaları, qanun qarşısında cavab vermələri beynəlxalq hüquq çərçivəsindədir.

Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur ərazilərini Ermənistanın otuzillik işğalından azad edəndə də, antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyünü, suverenliyini bərpa edəndə də Azərbaycan gücünü, qüdrətini göstərdi. Vətənimiz naminə, üçrəngli, ay-ulduzlu bayrağımız bütün ərazilərimizdə ucalsın deyə, bu xalqın minlərlə qəhrəman övladı canından keçdi. Artıq ölkəmizin digər əraziləri kimi, Şuşada, Xankəndidə, Xocalıda, Ağdamda, Füzulidə, Qubadlıda, Laçında, Kəlbəcərdə də bayrağımız dalğalanır. Düşmən hansı təxribatlara əl atırsa, atsın, bu həqiqəti heç zaman dəyişə bilməyəcək. Bu müqəddəs bayrağı hər zaman ucalarda görəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

İŞİMİZ, GÜZƏRANIMIZ

# Çin Azərbaycanın "yaşıl" partnyoruna çevrilir

**"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" iki ölkə arasında münasibətlərin yeni bir səhifəsini açır. Məlumdur ki, keçən ilin iyul ayında ŞƏT-in Astanada keçirilən 24-cü sammitində Azərbaycan-Çin strateji tərəfdaşlığının qurulmasına dair Birgə Bəyannamə ölkələrimizin qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığının inkişafına geniş imkan yaratmışdı. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində imzalanan birgə bəyanatı isə əlaqələrin daha da dərinləşməsinə və şaxələnməsinə xidmət edir.**

Birgə bəyanatın bəndlərindən birində tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirirlər.

Əslində, Azərbaycan-Çin enerji əməkdaşlığı xeyli əvvəl başlanıb. Həmin istiqamətdə görülən işlər sırasında "yaşıl enerji"nin xüsusi önəmi var. Bu, cari il yanvarın 20-də dövlətimizin başçısının Davosda Çinin CGTN telekanalına müsahibəsində də vurğulanmışdı.

Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində isə bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalanıb.



Energetika Nazirliyinin məlumatına görə, bu sənədlər ümumilikdə 260 MVt gücündə günəş-elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş-elektrik stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt gücündə külək-elektrik stansiyasının inşası, daha 2 MVt gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

Ölkəmizdə 100 MVt gücündə "Qobustan" günəş-elektrik stansiyası layihəsi icra ediləcək. Bununla bağlı Azərbaycan hökuməti və "Universal Solar Azerbaijan" MMC arasında İnvestisiya Müqaviləsini Energetika Nazirliyi və "Universal Solar Azerbaijan" imzalayıb. İnvestisiya Müqaviləsi Qobustan rayonunda günəş-elektrik stansiyasının tikintisini və istismarını nəzərdə tutur. Növbəti mərhələdə şirkət ilə elektrik enerjisinin alqı-satqı, ötürücü şəbəkəyə qoşulma və torpaq icarə müqavilələri imzalanacaq. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il təxminən 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 86 min ton azaltmağa imkan verəcək. Bu layihə üzrə Çin şirkəti ilə əməkdaşlıq hərrac vasitəsilə müəyyənləşdirilib.

Növbəti müqaviləyə əsasən, Xəzər dənizində külək enerjisi potensialının qiymətləndirilməsi, bu sahədə layihələrin planlaşdırılması və inşası üzrə əməkdaşlıq ediləcək. Bu, Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycanda dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış İcra müqaviləsidir. Burada mərhələli əsasda minimum 2 QVt gücündə dənizdə külək-elektrik stansiyasının qiymətləndirilməsi, inkişaf etdirilməsi, layihələndirilməsi, maliyyələşdirilməsi, mühəndisliyi, tikintisi, istismara verilməsi və texniki xidmət üzrə əməkdaşlıq nəzərdə tutulur.

Digər bir sənəd Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" MMC arasında imzalanıb. Belə ki, Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsinə müvafiq olaraq yaradılacaq layihə şirkəti vasitəsilə texniki-iqtisadi əsaslandırma, layihələndirmə, maliyyələşdirmə, tikinti, istismar və texniki xidmət işləri həyata keçiriləcək. Burada "China Datang Overseas Investment Co. Ltd" şirkəti əsas investor kimi çıxış edəcək.

Həmçinin Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" arasında 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış İcra müqaviləsi mübadilə edilib. Stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır və obyektdə illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.

Layihənin həyata keçirilməsi üçün xüsusi layihə şirkətinin və rəhbər komitənin yaradılması nəzərdə tutulur. Sənəddə layihənin texniki-iqtisadi əsaslandırılması, layihələndirilməsi, maliyyələşdirilməsi, tikintisi, istismarı və texniki xidməti kimi istiqamətlər əks olunub. Energetika Nazirliyinin layihə üçün torpaq sahəsinin ayrılması, müvafiq icazələrin verilməsi və yerli resurslardan istifadə olunmasına dəstək göstərməsi planlaşdırılır. Layihə həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir.

Energetika Nazirliyi, "SOCAR Green", "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Memorandum çərçivəsində investisiya imkanlarının qiymətləndirilməsi və müvafiq texniki-hüquqi dəstək mexanizmlərinin qurulması üzrə əməkdaşlıq ediləcək. Layihənin inkişafı məqsədilə rəhbər komitə və İşçi Qrup yaradılacaq, həmçinin kommersiya, hüquq və texniki sahələr üzrə ekspertlər cəlb olunacaq. Müvafiq icazələrin alınması, dəniz ərazilərinin ayrılması və digər zəruri proseslərdə Energetika Nazirliyi dəstək göstərəcək.

"Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu isə Energetika Nazirliyi ilə Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında imzalanıb. Memorandum 2028-ci ildən sonrakı dövr üzrə bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası ilə əlaqədar ötürücü şəbəkədə müvafiq araşdırmaların aparılmasını nəzərdə tutur. Araşdırmaların nəticələrinə əsasən, texniki və iqtisadi baxımdan səmərəli həllərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması planlaşdırılır. Birinci mərhələdə bərpaolunan enerji mənbələri üzrə tələbatın qiymətləndirilməsi, növbəti mərhələdə isə müəyyən edilmiş güclərin ötürücü şəbəkəyə inteqrasiyasının tədqiqi həyata keçiriləcək.

***Flora SADIQLI,*
*"Azərbaycan"***

# Əhalinin sosial güvənliyinin təminatı prioritet istiqamət olaraq qalır

**Azərbaycanda son illər əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar, sərəncamlar cəmiyyətin rifah halını xeyli yaxşılaşdırmışdır.**




Ötən ilin dekabrında Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamı isə aparılan sosial islahatların uğurla davam etdiyini göstərir. Həmin sərəncamla bu il yanvarın 1-dən əməkhaqları və pensiyalarda növbəti artımlar olmuşdur. Belə ki, minimum aylıq əməkhaqqı 400, minimum təqaüd 320 manata çatdırılmış və pensiyalar indeksləşdirilmişdir. Bununla 2018-ci ilin əvvəlindən




minimum aylıq əməkhaqqında 3,1, minimum pensiyada 3, orta aylıq pensiyada 2,6 dəfə artıma nail olunmuşdur. Qeyd edək ki, indiyə kimi Azərbaycanda 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi icra olunub ki, bu da sosial ödəniş artımlarına illik əlavə 7,6 milyard manat ayrılması deməkdir. O cümlədən müavinət və təqaüd ödənişləri üzrə son 7 ildə 5 dəfə artım olmuşdur. Qeyd edək ki, bu il də həmin ödənişlərdə artımın davam etməsi gözlənilir.

Məşğulluq sahəsində də işlər uğurla davam edir. Rəsmi statistikaya görə, ca-




ri ilin yanvar-mart aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyindəki Dövlət Məşğulluq Agentliyinə (DMA) 84,7 min şəxs aktiv məşğulluq tədbirlərinə cəlb olunub. Onlardan 27,2 min şəxsin münasib işlərlə təmin edilməsi, 1200-dək şəxsin kiçik ailə təsərrüfatlarını yaratmaq üçün özünüməşğulluq proqramına cəlb olunması məşğulluğun genişləndirilməsi üçün atılan addımların göstəricisidir. Ümumiyyətlə, DMA bu ilin sonunadək 420 mindən çox şəxsi aktiv məşğulluq proqramlarına cəlb etməyi hədəfləyib. Bu proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda artıq 266 şəxsin öz doğma torpaqlarında kiçik təsərrüfatlarını qurmasına dəstək verilib.

Sosial-iqtisadi həyatın canlanmasında önəmli rol oynayan əmək yarmarkalarının, peşə kurslarının təşkili də işğaldan azad edilmiş ərazilərimizdə sakinlərin işlə təminatına dəstək verən amillərdəndir. Bundan əlavə, ƏƏSMN tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa dəstək layihəsi" özünüməşğulluq proqramının genişləndirilməsinə, həssas əhali qruplarına aid şəxslərin kiçik biznesə çıxışına mühüm dəstəkdir. Layihə üzrə həssas qruplara aid artıq 24 min işsiz şəxs üçün istehsal və xidmət sahələri üzrə kiçik bizneslər yaradılıb. 22 min işsiz şəxsi əhatə edən bu layihənin icrasının nəticəsi







olaraq, iştirakçıların sayı artmaqda davam edir.

Məlumdur ki, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) mərkəzlərində xidmətlərin çevikliyinin təmin olunması daim diqqətdə saxlanılır. Beynəlxalq səviyyədə də yüksək qiymətləndirilən DOST konsepsiyası əsasında dövlət sosial xidmətləri "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir. Təkcə bu ilin 3 ayında 213 min vətəndaş DOST mərkəzlərinin xidmətlərindən faydalanıb. Onu da qeyd edək ki, bu xidmətlərin sayı getdikcə artır. Belə ki, Prezident İlham Əliyevin 12 mart 2025-ci il tarixli fərmanı ilə DOST Agentliyinin Nizamnaməsi və DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısı təkmilləşdirilib. Siyahıda bir sıra yeni




xidmət istiqamətləri də əksini tapıb. Beləliklə də DOST mərkəzlərində göstərilən xidmətlərin sayı 156-dan 161-ə çatdırılıb.

Nazirliyin reabilitasiya mərkəzlərinin fəaliyyəti də əhalinin əlilliyi olan təbəqəsi tərəfindən razılıqla qarşılanır. Yalnız bu ilin ilk üç ayında həmin mərkəzlərdə əlilliyi olan 27,9 min şəxsə reabilitasiya xidmətləri göstərilib, 4500 əlil şəxsə 29,4 min reabilitasiya vasitəsi verilib. ƏƏSMN tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində ənənəvi üsullarla paralel olaraq, 2018-ci ildən ötən dövrdə qabaqcıl dünya təcrübəsinə uyğun olaraq robotik reabilitasiya, sosial-psixoloji reabilitasiya, yoqa, ippoterapiya, dance ability (rəqs terapiyası) və s. kimi reabilitasiya üsullarının da tətbiqinə başlanılıb. Həmçinin stasionar və ambulator xidmətlərlə yanaşı, son illər icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

***Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"***

# Azərbaycan və Rusiya arasında aqrar sahə üzrə əməkdaşlıq məsələləri müzakirə edilib

**Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Rusiya Federasiyasının kənd təsərrüfatı naziri Oksana Lut arasında onlayn formatda görüş keçirilib.**




Görüş zamanı iki ölkə arasında kənd təsərrüfatı sahəsində mövcud vəziyyət müzakirə olunub, tərəflər iqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sahədə də əməkdaşlığın dinamik inkişaf etdiyini vurğulayıblar.

Rusiya Federasiyasının kənd təsərrüfatı naziri Oksana Lut qeyd edib ki, kənd təsərrüfatı iki ölkə arasında əsas əməkdaşlıq istiqamətlərindən biridir. O, Rusiya tərəfinin Azərbaycanla aqrar sahədə əməkdaşlığın genişləndirilməsində, biznes subyektləri və iş adamları arasında işgüzar əlaqələrin inkişafında maraqlı olduğunu bildirib. Oksana Lut eyni zamanda Rusiyanın Azərbaycanın taxıl məhsullarına olan tələbatını tam qarşılamağa hazır olduğunu qeyd edib. O, may ayında Rusiyanın aparıcı taxıl ixracatçılarından ibarət bir biznes missiyasının Azərbaycana səfər edəcəyini bildirib. Rusiyalı nazir balıqçılıq da daxil olmaqla, kənd təsərrüfatının digər sahələrində də əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov iki ölkə arasında kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsinin artırılmasının əsas hədəflərdən biri olduğunu qeyd edib. Nazir vurğulayıb ki, bu istiqamətdə böyük potensial mövcuddur. O, ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasında aktiv iştirakına görə xanım Oksana Luta təşəkkür edib, Rusiya şirkətlərini gələn ay Bakıda keçiriləcək və Qafqazın ən böyük kənd təsərrüfatı sərgisi olan "Caspian Agro" sərgisində fəal iştiraka çağırıb.

Görüş zamanı tərəflər kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, aqrar sahədə ən müasir texnologiyaların transferi, rəqəmsallaşma, elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilməsi, Rusiyanın kənd təsərrüfatı sahəsində ixtisaslaşmış nüfuzlu ali təhsil müəssisələrindən biri ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında ikili diplom proqramlarının həyata keçirilməsi, bitki seleksiyası və toxumçuluqda yeni texnologiya və metodların tətbiqi, heyvan xəstəliklərinə qarşı mübarizə sahəsində birgə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Tərəflər həmçinin kənd təsərrüfatı sahəsində yeni əməkdaşlıq imkanlarını nəzərdən keçirib, bu istiqamətdə əlaqələrin genişləndirilməsi məqsədilə mütəmadi dialoqun əhəmiyyətini vurğulayıblar.

# "Azərbaycanın kosmos sahəsində artan potensialı əməkdaşlıq üçün mühüm imkanlar yaradır"

**"Azərbaycanın kosmos sahəsində artan potensialı və regional rolu strateji əməkdaşlıq üçün mühüm imkanlar yaradır. Azərbaycan kimi ölkələrlə əməkdaşlıq həm tərəfdaşlıq ruhunu gücləndirəcək, həm də texnoloji irəliləyişə töhfə verəcək".**



AZƏRTAC xəbər verir ki, bunu Macarıstanın texnologiya şirkəti "4iG Space and Defence Technologies"in nümayəndəsi Sebastyan Masurak Bakıda keçirilən Kosmik Texnologiyalar Konfransının (STC2025) panel sessiyasında çıxışı zamanı bildirib.

"4iG şirkətinin həyata keçirdiyi "FooSat" proqramı çərçivəsində ümumilikdə 9 peykin - GEO, səkkizi isə LEO orbitində olmaqla - istehsalı planlaşdırılır. Bu proqram çərçivəsində yerüstü infrastruktur və məlumat ekosisteminin yaradılması da nəzərdə tutulur və bu sahədə "Azərkosmos"la əməkdaşlıq xüsusi önəm daşıyır. Bu miqyasda layihələri təkbaşına həyata keçirmək mümkün deyil. Buna görə də biz tərəfdaşlığa, texnologiya və bilik mübadiləsinə xüsusi önəm veririk. "Azərkosmos"la əməkdaşlığımız bu baxımdan çox dəyərlidir. Bu əməkdaşlıq həm bizim, həm də Azərbaycanın qlobal kosmik iqtisadiyyatda mövqeyini daha da gücləndirəcək", - deyə Sebastyan Masurak vurğulayıb.

# Birinci rübdə "e-sosial" portalından 3,3 milyon dəfə istifadə olunub

**Bu ilin birinci rübü ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial" internet portalından 3,3 milyon dəfə istifadə olunub.**

2019-cu ildə istifadəyə verilən portal ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlara dair toplanmış bütün sosial məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat və s. üzrə) çıxış və yaranan sosial-əmək hüquqlarının təminatına nəzarət imkanı yaradır.

"E-sosial" portalı üzərindən pensiya, müavinət, təqaüd, əlillik, reabilitasiya, məşğulluq, iş yeri və s. barədə elektron arayışlar əldə etmək də mümkündür.

Portaldan qeydiyyatdan keçən aktiv istifadəçi sayı 2 milyon 325 minə çatıb.

# Niderlandda islamofobiya "çiçəklənir"

## Ölkədə müsəlmanlarla bağlı qanunsuz gizli məlumatlar toplanırmış



**Niderlandın Məlumatların Mühafizəsi İdarəsi (AP) Sosial Məsələlər və Məşğulluq Nazirliyinə (SZW) müsəlman icmalarının üzvlərinin qanunsuz toplanmış şəxsi məlumatlarını iki ay ərzində məhv etməyi əmr edib. AP 2016-2019-cu illər arasında ölkədəki müsəlman icmaları, şəxslər və təşkilatlar barədə məlumat topladığını və bu fəaliyyətin qanunsuz həyata keçirildiyini qeyd edib.**

Araşdırma zamanı məlum olub ki, nazirlik məscidlərə səfərlər zamanı özəl araşdırma şirkəti vasitəsilə fəaliyyət göstərib. Müsəlmanlarla bağlı məlumatlar kimliklərini gizlədən işçilər vasitəsilə toplanıb. Məlumdur ki, ən azı 31 nəfər qanunsuz tədqiqatın subyekti olub.

Avropa Parlamentinin sədri Aleyd Volfsen bildirib ki, heç bir hüquqi əsas olmadığı və nazirliyin bununla bağlı şəffaflıq nümayiş etdirmədiyi üçün bu araşdırmalarda şəxsi məlumatların toplanması qanunsuzdur. Spikerin fikrincə, bu, həm də dini ayrı-seçkilik xarakteri daşıyıb, çünki əsasən müsəlmanəsilli insanlar hədəf alınıb.

Milli Terrorla Mübarizə və Təhlükəsizlik Koordinasiya Müdirliyinin (NCTV) nəzarətində olan bir sıra müsəlmanın adından iddia qaldıran vəkil Samirə Sabir, DENK Partiyasından millət vəkili Doğukan Ergin, habelə Dövlət və Müsəlmanlarla Əlaqələr İdarəsinin (CMO) sədri Muhsin Köktaş vəziyyəti "Anadolu" agentliyinə şərh ediblər. Samirə Sabir bildirib ki, Sosial Məsələlər və Məşğulluq Nazirliyi uzun müddətdir ki, müsəlman icmalarında fəal rol oynayan şəxslərin, o cümlədən imamların, məscid rəhbərlərinin və xətiblərin şəxsi məlumatlarının qanunsuz toplanması və emalı ilə məşğul olub. Vəkilin dediyinə əsasən, şübhəli tədqiqat şirkətlərinin köməyi ilə böyük həcmdə məlumat toplanıb və emal edilib. Üstəlik, bu, monitorinqdə olan şəxslərin xəbəri olmadan həyata keçirilib.

Sabir nazirlikdən sorğular nəticəsində yalnız xülasə və qismən məlumat əldə etmək mümkün olduğunu, lakin daxil olan məlumatlara əsasən bunların toplanması üsullarının qanunsuz olduğunu da deyib: "Biz müəyyən etdik ki, nazirlik "şübhəli tədqiqat şirkətləri" və ya "casus" kimi xatırlanan şəxsləri vəzifəyə təyin edir. Həmin şəxslər özlərini təqdim və niyyətlərini izah etmədən məscidlərdə suallar verir və məlumat toplayırdılar". Onun sözlərinə görə, toplanmış məlumatlar NCTV və bələdiyyələrlə paylaşılıb: "Məqsədimiz bütün məlumatların silinməsini təmin etməkdir, lakin əvvəlcə dəqiq olaraq hansı məlumatın hələ də mövcud olduğunu və kimlərlə paylaşıldığını müəyyən etməliyik. Məlumatların nə qədər yayıldığını hələ dəqiq bilmirik və bu səbəbdən qətiyyətlə məhkəmə prosesini sona çatdırmağa qərarlıyıq".

Millət vəkili Doğukan Ergin isə bildirib ki, dövlət ilk növbədə öz vətəndaşlarına güvənməlidir. Lakin Niderland dövləti islamofobiya, müsəlmanlara qarşı sırf təhlükəsizliyin olmamasına əsaslanan özbaşına siyasət həyata keçirib. O qeyd edib ki, Sosial İşlər və Məşğulluq Nazirliyi ilə bağlı parlament sorğularına alınan cavablar qənaətbəxş deyil: "Onlar dedilər ki, bunun necə baş verdiyini bilmirik, məqsədimiz bu deyildi, biz sadəcə, o vaxt Suriyaya gedən gəncləri nəzarətdə saxlamaq istəyirdik. Burada əsas problem dövlətin bütün vətəndaşlarına güvənməsi, lakin müsəlmanlara münasibətdə etibarsız siyasət yürütməsidir". Deputatın sözlərinə görə, bu vəziyyət müsəlman icmalarında inamsızlıq yaradıb.

Ergin toplanan məlumatların silinməsi prosesindən də rahatsız olduğunu bildirib: "Bu məlumatlar iki ay ərzində Sosial Xidmətlər Departamentində silinsə də, onlardan müxtəlif dövlət idarələrində istifadə olunma ehtimalı yüksək olaraq qalır. Bu məlumat kimisə işə götürməkdən imtina etmək və ya müsəlmanların banklarda lüzumsuz sorğu-sual edilməsinə səbəb ola bilər".

Ergin məsələnin parlamentin gündəliyinə salınması cəhdlərini bildirib. Lakin onun ümumi yığıncağın çağırılması təklifi rədd edilib.

Öz növbəsində CMO rəhbəri Muhsin Köktaş 2016-2019-cu illər arasında aparılan araşdırmaların bələdiyyələr və NCTV ilə əməkdaşlıqda gizli şəkildə aparıldığını söyləyib: "Tədqiqatçılar məscidlərə gedib araşdırma keçirdiklərini demədən özlərini camaatın nümayəndəsi kimi aparıblar. Kimin kiminlə əlaqə saxladığı, məscid rəhbərinin ailəsində nələrin baş verdiyi, kimin kiminlə mübahisə etdiyi ilə bağlı çox dərin və az qala casus xarakterli araşdırma aparılıb. Bu barədə məlumat sonradan "NRC" qəzetinin reportajında yer alıb. Əks halda nazirliyin özü bunu açıqlamazdı".

Köktaş bu hadisələrin müsəlmanlar arasında böyük inamsızlığa səbəb olduğunu və sadəcə, məlumatların silinməsinin kifayət etməyəcəyini qeyd edib: "Ola bilsin ki, adlar silinib, lakin bu vəziyyətin yaratdığı inamsızlıq aradan qaldırılmalıdır. Hazırda müsəlmanlarda elə təəssürat yaranır ki, onlar izlənilir və idarə olunurlar".

Deputat bildirib ki, son vaxtlar parlamentdəki bəzi partiyalar azan oxunmasını qadağan edən qanun layihəsini müzakirə edirlər: "Müsəlmanlara qarşı ayrı-seçkiliyə dair hesabata baxmayaraq, parlamentdə müsəlmanların həyatını çətinləşdirəcək, inanc və həyatlarını məhdudlaşdıracaq məsələlər müzakirə olunur. Bu, müsəlmanları çox rahatsız edir".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## ELAN

"Avromed Company" Qapalı Səhmdar Cəmiyyəti təşkilati-hüquqi formasını dəyişərək "Avromed Company" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməsini və səhmlərin dövriyyədən çıxarılmasını elan edir.


# Ucaboyluluq diqqətçəkən olsa da...

**Bəzən zahirən gözəl və yaraşıqlı olan insanların həyata bir addım öndə başladıqlarını deyirlər. İnsanlarda mənəvi dəyərlər əsas olsa da, beynimiz qarşılaşdığımız insanları öncə xüsusiyyətlərindən çox, xarici görünüşünə görə dəyərləndirir. Təbii ki, istisna halların da olması mümkündür. Lakin bu, ümumi qanunauyğunluğu pozmur.**



Demək olar ki, hər kəsin, xüsusilə də oğlanların arzuladığı uca boy daxili və ətraf mühit amillərinin qarşılıqlı təsirindən, əsasən genetikadan, habelə idmanla məşğul olmaqdan və inkişaf dövründəki qidalanmadan asılıdır. Sümüklərin uzanma prosesi qızlarda 18-20, oğlanlarda isə 22 yaşına kimi davam edir. Ata-ananın boyunun hündürlüyü əksər hallarda övladlarının da boylarının uca olmalarını şərtləndirir. Lakin burada yeddi nəsil önəmli meyar sayılır. Belə ki, nəsildə qısaboylu insanlar varsa, bu, uşağın DNK-sında kodlanır. Bu zaman hormonal balans və qida rasionuna diqqət edərək boyun uzanmasına nisbətən kömək etmək olar.

Bəzən uzunboylu kişi və qadınların daha dominant, sağlam və ağıllı olduqları düşünülür. Lakin buz dağının görünməyən tərəfi də var. Belə ki, mütəxəssislər hündür olmağın sağlamlığa mənfi təsirlər də göstərdiyini deyirlər. Hələ 1992-ci ildə bioloji antropoloq Tomas Samaras Ümumdünya Səhiyyə Təşkilatının bülletenində ucaboylu insanların daha qısa ömür sürdüyünü iddia edən bir araşdırma dərc etdirib.

İsveçin Karolinska İnstitutunun tədqiqatçıları uca boyun xərçəng riskini artırdığını, boyun hər 10 santimetrində xərçəng riskinin qadınlarda yüzdə 18, kişilərdə isə yüzdə 11 faiz artdığını təyin ediblər. Bu, hündür insanların xərçəngə çevrilə bilən hüceyrələrinin daha çox olması ilə izah edilib. Bəlkə elə buna görə də kişilərin xərçəngə tutulma riski qadınlara nisbətən 50 faiz yüksəkdir.

Türkiyəli professor Osman Müftüoğlunun sözlərinə görə, orqanizmdəki qocalmış hüceyrələrin bəziləri ölməkdən imtina edir və "zombi hüceyrələr"ə çevrilir. Bu "zombilər" iltihaba səbəb olan maddələr istehsal edərək gənc hüceyrələrin öz işlərini görmələrinə mane olurlar. Ölməyən, lakin normal hüceyrə funksiyalarını yerinə yetirə bilməyən bu hüceyrələr yaşlılığa bağlı osteoartrit, ateroskleroz, altsheymer və parkinson kimi nevroloji degenerativ xəstəliklərin yaranmasına səbəb olur. Gənc bədən "zombi hüceyrələri" və toxumalarını təmizləyə bildiyi halda, immun sistemi yaşlandıqca proses dayanır. Bu hüceyrələr toxumalarda toplanır və qocalmağa səbəb olur.

İnsan orqanizmində olan yararsız və mənfi hüceyrələrin kiçik bir hissəsini belə təmizləmək yaşa bağlı orqan pozulmalarını gecikdirir, ömrün uzunluğunu və keyfiyyətini artırır. Bu hüceyrələri məhv edən molekullara senolitiklər deyilir. Ən güclü senolitik COVID-19 pandemiyası zamanı adı daha çox hallanan immunitetgücləndirici kversetindir. Güclü antioksidant təsirə malik bu maddə sərbəst radikalları zərərsizləşdirir, iltihabı yox edir, ürək və xərçəng xəstəliyinin qarşısını alır, beyində yaddaş pozulmasını, qocalıq demensiyasının yaranmasını əngəlləyir, allergiyanı yüngülləşdirir, immuniteti dəstəkləyir, bağırsaqlara prebiotik kimi təsir edir, C vitamininin mənimsənilməsini artırır, sinkə dəstək olur, beynin qavrama qabiliyyətini yülsəldir. Kversetitinin gündəlik dozası böyüklər üçün 10-40 mq-dır. Bir boşqab tərəvəz, 500 qram meyvə 250-300 mq kversetin deməkdir.

Kversetin qırmızı soğan, brokkoli, kələm, bolqar bibəri, qırmızı alma, armud, üzüm, kahı, qarabaşaq, qoz, badam və xurmanın tərkibində olur. Mütəxəssislər orqanizmin bu maddəni yaxşı mənimsəsin deyə, tərəvəzləri zeytun yağı ilə qarışdırıb yeməyi tövsiyə edirlər.

Fisetin də güclü senolitikdir. O, beyin funksiyasını qoruya bilər, oksidləşdirici stresi azalda bilər və sağlam qocalmanı dəstəkləyə bilər. Kversetindən daha güclü və təsirli olan bu maddə nisbətən az məhsulda mövcuddur. Onun ən güclü mənbəyi çiyələkdir. Hər gün 50-100 qram çiyələk böyük lif gücü verir. Mütəxəssislər bildirirlər ki, tövsiyə edilən qidaları qəbul etməklə hər bir insan orqanizmini zərərli maddələrdən təmizləyə, yaşlanma prosesini yavaşlada bilər.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Hava dəyişkən buludlu, əsasən yağmursuz keçəcək

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal küləyi gecə və səhər bəzi yerlərdə arabir güclənəcək.**



Xidmətdən AZƏRTAC-a verilən məlumata görə, havanın temperaturu gecə 13-17° isti, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 751 mm civə sütunundan 757 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-18° isti, gündüz 27-32° isti, dağlarda gecə 5-10° isti, gündüz 15-20° isti olacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**



## ALLAH RƏHMƏT ELƏSİN!

Umud Rəhimoğlu, Fazil Allahverdiyev, İlham və Tural İbrahimovlar, Rafiq və Hacı Müşfiq Hüseynovlar, Əlövsət Əliyev, Şahin Aslanov, Hidayət, Müstəqim, Mircəfər, Mircəlil və Rəşad İsmayılovlar Təhmasib Rəhimova əzizi, veteran pedaqoq

**MÜZƏFFƏR HACIMURAD OĞLU RƏHİMOVUN**

Qəbələ rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3521
Sifariş 818

Qiyməti 60 qəpik